RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 113 (8992) ÇƏRŞƏNBƏ, 1 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Heç vaxt Azərbaycan indiki qədər güclü olmayıb



**ƏZİZ SƏNCƏR**

"Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam"



**RƏCƏB TAYYİB ƏRDOĞAN**

"Bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq"



**İLHAM ƏLİYEV**

"Biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik"

→ 2-3

## Müstəqilliyimiz əbədidir, dönməzdir



**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.**

→ 8

## Prezidentlər Bakıda birgə açılış etdilər

**Mayın 28-də Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılışda iştirak ediblər.**




→ 6

## İlham Əliyev və Vladimir Putin Azərbaycan-Rusiya strateji tərəfdaşlığını dərinləşdirmək əzmindədirlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının regionda dinc həyatın nizamlanması və sabitliyin möhkəmlənməsi, iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı konkret məsələlərin həlli xüsusi qeyd olunmaqla icrasının gedişi nəzərdən keçirilib.

Prezident İlham Əliyev mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü barədə məlumat verib.

Söhbət zamanı iqtisadi-ticari sahədə ikitərəfli əməkdaşlığın bir sıra aktual aspektləri müzakirə edilib. Hər iki tərəfin Rusiya-Azərbaycan strateji tərəfdaşlığının, o cümlədən Azərbaycan Prezidentinin 2022-ci ilin fevralında Moskvaya rəsmi səfərinin yekunları nəzərə alınmaqla, bundan sonra da dərinləşməsi əzmində olması təsdiq edilib.

Müxtəlif səviyyələrdə müntəzəm təmasların davam etdiriləcəyi qeyd olunub.

***Prezidentin Mətbuat Xidməti***



## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib






# Heç vaxt Azərbaycan



**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan "TEKNOFEST Azərbaycan" festivalının keçirildiyi məkana gəldilər.

Türkiyənin "Baykar" şirkətinin texniki direktoru **Selçuk BAYRAKTAR** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Prezidentim.

Dəyərli qonaqlar.

"TEKNOFEST Azərbaycan"a xoş gəlmisiniz. Sizləri sevgi və hörmətlə salamlayıram.

"TEKNOFEST" müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir. Mənə dünən ilk dəfə görməyin nəsib olduğu işğaldan azad edilmiş qədim şəhərimiz Şuşada, Cıdır düzündə, o geniş düzdə azad şəkildə gəzərkən bu ruhu daha da dərindən hiss etdim. "TEKNOFEST"i niyə keçiririk" deyə soruşduğum universitet tələbəsi gənc bir qız bu ruhu belə ifadə edərək dedi: "Dünya türkün gücünü görsün, yerini bilsin".



Biz də bu yola bu amalla çıxmışıq, "TEKNOFEST"in şüarının artıq düşüncələrdə yer aldığını görürük. Bundan sonra üzərimizə düşən vəzifə türk nəsillərinin yolunu açmaq üçün dayanmadan çalışmaqdır. İnanıram ki, bu yarışlardan çıxacaq gənc qardaşlarım bu ruhdan aldıqları ilhamla irəliləyəcək və tam müstəqillik mübarizəsində ən öndə olacaqlar.

Hörmətli qonaqlar, "TEKNOFEST Azərbaycan"ın təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinə təşəkkür edirəm. Gecə-gündüz əməyi keçən Türkiyə Texnologiya Komandası Vəqfindəki (T3 Vəqfi) heyətimiz və könüllülərimiz olmasaydı, bu qədər uğurlu bir "TEKNOFEST" sevincini yaşaya bilməzdik.

Fəaliyyət göstərdiyi Amerikadan Bakıya gələrək bizi və gənclərimizi şərəfləndirən Nobel mükafatı laureatı, görkəmli alimimiz Əziz Səncərə də ürəkdən təşəkkür edirik.

"TEKNOFEST" bayramında iştirak edən azərbaycanlı bacı və qardaşlarıma minnətdarlığımı bildirirəm.

Qardaşlığımızı daha da gücləndirəcək "TEKNOFEST"i himayə edən hörmətli cənab Prezident İlham Əliyev və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğan başda olmaqla, dəstəyini əsirgəməyən bütün tərəfdaşlarımıza təşəkkürlərimi ifadə edirəm.

Can Azərbaycanın Müstəqillik Günü mübarək! Eşq olsun Azərbaycana! Eşq olsun Türkiyəyə!



❖ ❖ ❖

Festivalda çıxış edən dünyaşöhrətli türkiyəli alim, Nobel mükafatı laureatı professor **Əziz SƏNCƏR** dedi:

- Hamınızı hörmət və məhəbbətlə salamlayıram.

Bu gün türk dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104-cü ildönümüdür. Bu münasibətlə bütün azərbaycanlı qardaşlarımızı, bütün türk dünyasını təbrik edirəm.

Əziz gənclər, Bakıda "TEKNOFEST Azərbaycan"da sizinlə bir yerdə olduğum üçün çox şadam. Sizin elm və texnologiya sahəsində çalışmaq istəyiniz məni çox xoşbəxt edir. Bir böyüyünüz olaraq sizlərə əhəmiyyətli hesab etdiyim bir məsələ ilə bağlı tövsiyə vermək istəyirəm. Mən xərçəng xəstəliyi ilə bağlı çalışarkən Nobel mükafatı qazanım deyə işə başlamadım. Bu xəstəliyə qarşı bir dərman tapa bilərikmi deyə fəaliyyətə başladım. Həyatda və işlərinizdə yüksəlmək və ya mükafat almaq kimi məqsədlər üçün çalışmayın. Gördüyünüz hər işdə həmişə ən yaxşı olmağa çalışın. Ən önəmlisi insanlığa və Vətəninizə töhfə verməyə çalışın. Dürüst, əxlaqlı və ədalətli olun. Əgər bu şəkildə çalışsanız, mütləq mükafatınızı alacaqsınız. Bundan başqa, gördüyünüz işlərdən duyduğunuz coşqunun sönməsinə izn verməyin. Fateh Sultan Mehmet İstanbulu fəth edərkən "Ya mən səni alacağam, ya da sən məni" dediyi kimi coşqu və həvəslə çalışın.

Əziz gənclər, Vətənimizi sevməkdən əsla vaz keçməyin. Vətəninizə, insanlarınıza fayda verməyən işlərin davamlı olmayacağını bilin. Mənim üçün ən önəmli amillərdən biri türk dünyasının inkişafı və türk gənclərinin elmdə ən ön sıralarda yer almasıdır. Mardin vilayətinin Savur rayonundan çıxan və oxuma-yazma belə bilməyən bir ailənin uşağına bu şansı verən millətimizə güvənin. Vətənimizin, - Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam, onu da açıqlayım, - yüksəlməsi üçün lap çox çalışın. İşlər qaydasında getmədikdə belə düzəltmək üçün mübarizə aparın, inadkar olun və məğlubiyyəti əsla qəbul etməyin.

Mən qırx yaşıma qədər gündə ən az 18 saat işlədim. Gəncliyimdə çox gecəni laboratoriyada keçirdim. İndi də 12 saatdan az işləmirəm. Unutmayın, işləmək və insanlığa faydalı olmaqla siz özünüzü həmişə daha yaxşı hiss edəcəksiniz. İnsanlığa, ölkənizə xeyirli bir iş görmənin verdiyi məmnunluq həmişə daha xoşbəxt olmağınızı təmin edəcək.

Siz gəncləri elmə yönəldən bu festivalları təşkil edən qardaş və bacılarınıza çox təşəkkür edirəm. Bu elm festivallarına dəstək verən prezidentlərimiz Rəcəb Tayyib Ərdoğana və İlham Əliyevə ürəkdən təşəkkürlərimi bildirirəm.

Hamınızı sevgi ilə salamlayıram. Allah yardımçınız olsun! Tanrı türkü qorusun!

❖ ❖ ❖

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi.

# indiki qədər güclü olmayıb

## Prezident İlham Əliyevin çıxışı




- Əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar, bacılar və qardaşlar.

Bildiyiniz kimi, bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşımın bizimlə bərabər olmasıdır. Xahiş edirəm, bütün Azərbaycan xalqı adından Türkiyə Respublikasının Prezidentini və onunla bərabər Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı səmimiyyətlə salamlayaq.

Yüz dörd il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq Cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir.

Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizedə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik. Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Xatırlayıram, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq.

Keçən il iyunun 15-də - Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzalayaraq Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. "TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.

Türk dünyasının böyük oğlu, dünyaşöhrətli alim, Nobel mükafatı laureatı hörmətli Əziz Səncər də "TEKNOFEST"in hörmətli qonağı qismində təşrif buyurub. Əziz bəylə keçən görüşümü xatırlayıram, mənə dedi ki, onun böyük arzusu var idi hər zaman - Şuşaya getmək. Mənimlə görüşdən sonra Şuşaya getmişdir və bildirmişdir ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, ona nail olmuşam - Şuşanı da gördüm. Bu, bizi də çox xoşbəxt etdi. Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir - həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan. Siz gənclər, Əziz bəyə oxşamağa çalışmalısınız.

Bu gün, eyni zamanda Selçuk Bayraktarı səmimiyyətlə salamlamaq istəyirəm. Selçuk bəy nəinki "TEKNOFEST"in təşkilatçısı və təşəbbüskarıdır, Selçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur "Bayraktar" PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar.

Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

Türkiyənin uğurlu inkişafı ilk növbədə Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

Mən bir daha əziz qardaşım, hörmətli Prezident və Türkiyədən gəlmiş bütün dostlarımıza, qardaşlarımıza, bacılarımıza bu bayram günündə bizimlə bərabər olduqları üçün öz təşəkkürümü bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək.

Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!

❖ ❖ ❖

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı




- Hörmətli Prezident, əziz Qardaşım.

Xanımlar və bəylər, əziz gənclər, hörmətli qonaqlar.

Sizi ən səmimi duyğularımla, məhəbbətlə salamlayıram.

Can Azərbaycanın Müstəqillik Günündə sizinlə bərabər olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər dəyərli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm. İstiqlal və gələcək yolunda apardığımız şanlı mübarizələri şəhidlikləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və hörmətlə yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını behişt etsin. Rəbbim bizləri də şəhidlərimizin müqəddəs və mübarək yolundan ayırmasın.

İki həftə əvvəl Rize-Artvin Hava Limanının açılışını əziz qardaşım hörmətli İlham Əliyev ilə birlikdə gerçəkləşdirmişdik. Bu gün isə küləyi sərt, insanı mərd bu gözəl paytaxt Bakıda bir başqa tarixi görüşə yenə birlikdə imza atırıq. Əziz qardaşım İlham Əliyevin timsalında Can Azərbaycanın mümtaz xalqına səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Xəzərin incisi Bakıda "bir millət, iki dövlət, tək festival" şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı - "TEKNOFEST"i keçiririk. Bu qürurlu günümüzdə sevincimizi bölüşdüyü üçün dəyərli alimimiz Əziz Səncərə şəxsən öz adımdan və millətim adından təşəkkür edirəm. Badi-Kubədən, yəni küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın mahnı oxuduğu diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm. Bu gün bir daha burada nümayiş etdirilən əzəli və əbədi qardaşlığımızı Rəbbim daimi etsin.

Əziz qardaşlarım, bu il diplomatik əlaqələrimizin yenidən qurulmasının 30-cu ildönümünü böyük bir qürurla qeyd edirik. Ortaq tariximizdən aldığımız ilhamla aramızdakı dostluq və məhəbbəti daha da sağlamlaşdırır, birlik və bərabərliyimizi daha da möhkəmləndiririk. Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulsa da, taleyimizin birliyi tarixin dərinliklərinə qədər uzanmaqdadır. 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur. Aramızdakı məhəbbətin gücünü mərhum Bəxtiyar Vahabzadənin bu gözəl misraları ilə ifadə etmək istəyirəm:

*Bir ananın iki oğlu,*
*Bir ağacın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan, Türkiyə.*

*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir,*
*Azərbaycan, Türkiyə.*

Bəli, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq. Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır. Eynilə Türkiyə kimi, bura da bizim Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura da bizim öz yurdumuzdur. Eyni qaydada Türkiyənin hər bir qarışı da sizlərin Vətəniniz, yurdunuzdur. Türk millətinin qəlbindəki Azərbaycan sevgisini kim qoparıb ata bilər? Qardaşlar arasında kim məsafə qoya bilər? İki qardaşı hansı hüdud ayıra bilər? Könüllərimiz arasında kim sərhəd çəkə bilər?

*Ellərin yurdunda çiçək açarkən*
*Bizim elə qar gəlir, qardaşım.*
*Bu hüdudu kimlər çəkib könlümə,*
*Dar gəlir, dar gəlir, qardaşım.*

Bəli, biz könüllərimizə çəkilən hüdudları yıxaraq bu gün burada birlikdəyik. Qərbdən Şərqə qədər harada bir qardaşımız varsa, ora bizim evimiz, yurdumuz, könül coğrafiyamızın ayrılmaz bir parçasıdır. Türkiyə və Azərbaycan olaraq bu anlayışla əlaqələrimizi, şükür olsun, əvvəlcə strateji tərəfdaşlıq, keçən il də Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdıq. Enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə qədər uzanan geniş bir sahədə güclü əməkdaşlıqlar qurduq. Burada Selçuk qardaşıma, onun böyük qardaşına, Bayraktar ailəsinə təşəkkür edirəm. Xüsusi vurğulamaq istəyirəm ki, silahlı pilotsuz uçuş aparatlarının zirvə nöqtəsi olan "Akıncı" PUA-ları İstanbuldan buraya fasiləsiz uçuş həyata keçirməklə rekorda imza atdı. İnşallah, uğurlarımız daha çox olacaq və onları da görəcəyik.

İlham qardaşımın da misilsiz töhfələri ilə ikitərəfli əlaqələrimizi təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdırdıq. Gələcəyimiz olan gənc nəsillərin ölkələrimiz arasında bütün sahələrdəki nümunəvi əməkdaşlığı daha da inkişaf etdirəcəklərinə inanıram. Səfərimin Azərbaycanın qədim şəhərinə həsr olunan "Şuşa ili"ndə gerçəkləşməsi də xüsusi məna daşıyır. Sizlərdən əziz şəhidlərimizin şanlı mirasına lazım gəldikdə canınız bahasına da olsa, sahib çıxmağınızı gözləyirəm.

Əziz gənclər, bu gün buraya aramızdakı məhəbbətin göstəricisi olaraq geniş heyətlə gəldik. Hər birinizə qəlbi sizinlə döyünən gənclərimizin salamını gətirdim. Sizlərə "Can Azərbaycan" deyəndə, "Qarabağ" deyəndə ürəyində fırtınalar qopan 85 milyonun salamını gətirdim. Sizlərə əllərini hər dəfə səmaya açanda Azərbaycanın firavanlığı və sabitliyi üçün dua edən Türkiyədəki qardaşlarınızın salamını gətirdim. Sizlərə Azərbaycan nəğmələri ilə sevinən, Azərbaycan ağıları ilə hüzünlənən milyonlarla dostunuzun, qardaşınızın salamını gətirdim. Sizlərə bölgəsində sabitlik abidəsi olaraq yüksələn Azərbaycan ilə həmrəyliyimizin xüsusi ifadəsi kimi gələcəyə zəfər dolu həyəcanla, coşqu ilə birgə addımlamağın anlam və mənasını gətirdim. Qarşılaşdığı bu qədər haqsızlığa, ədalətsizliyə baxmayaraq, diplomatiyada, iqtisadiyyatda, mədəniyyətdə dastan yazan Azərbaycan ilə fəxr edirik. Qardaşım İlham Əliyevin qətiyyətli liderliyi ilə Can Azərbaycanın aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyini məmnuniyyətlə görürük. Sizlərə bu il anadan olmasının 130-cu ilində rəhmətlə andığım Azərbaycanın milli şairi Əhməd Cavadın bu sözləri ilə müraciət etmək istəyirəm:

*Mən türk övladıyam, dərin ağlım, zəkam var,*
*Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?*
*Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam.*
*Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram!*

Bəli, biz haqsızlıq qarşısında susanlardan olmadıq və olmayacağıq. Fürsətdən istifadə edərək Heydər babamızı da rəhmətlə yad edirəm. Məkanı cənnət olsun.

Biz təzyiqlə, təhdidlə qorxudulanlardan olmadıq, əsla olmayacağıq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq. Bizim heç kimin torpağında, ərazi bütövlüyündə gözümüz olmadığı kimi, xəbis niyyətlilərə verəcək bir qarış torpağımız da yoxdur və olmayacaq. Çünki biz təsadüflərin bir araya gətirdiyi insanlar deyil, tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə seçilən böyük bir millətin övladlarıyıq. Harada zülm, haqsızlıq, ədalətsizlik varsa, səsini ucaldan, bütün gücü ilə mübarizəyə qalxan ürəkli bir millətin nümayəndələriyik. Qarabağ zəfəri millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyidir. Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab Əliyevin qətiyyətli mövqeyi sayəsində Qarabağ otuz il sonra əsarətdən qurtulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin igid mənsubları Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir zəfərə imza atmışlar. Bu məqam çox həssasdır, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərmişdir. Bu prosesdə Azərbaycan ilə paylaşdığımız müdafiə sənayesi məhsullarımızın uğuruna bütün dünya şahid olmuşdur. Müdafiə sənayesi məhsullarında çatdığımız səviyyə önəmlidir. Amma qarşımızda qət ediləcək hələ çox məsafə var. Hər məsələdə olduğu kimi, müdafiə sənayesində də gənclərimizin biliklərinə, enerjisinə, əzminə, səylərinə güvənirik. "TEKNOFEST" məhz bu güvənin rəmzi olan bir tədbirdir.

Bu gün "TEKNOFEST"i ölkə xaricində ilk dəfə Can Azərbaycanda təşkil etməyin həyəcanını və haqlı qürurunu sizinlə bölüşürük. Bura Azərbaycan gəncliyinin bacarığını, istedadını nümayiş və inkişaf etdirməsi üçün önəmli bir platformadır. "TEKNOFEST" yarışlarında öz işləri ilə fərqlənən siz gənclərimiz sabahın pilotsuz uçuş aparatlarını, süni zəkalarını, rəqəmsal texnologiyalarını istehsal edən və inkişaf etdirən alimləri olacaqsınız. Azərbaycan ilə birlikdə hələ neçə layihələrdə gənclərimizə yeni üfüqlər açmağı və milli texnoloji həmləmizi birlikdə reallaşdırmağı davam edəcəyik.

"TEKNOFEST Azərbaycan"da Türk Dövlətləri Təşkilatını təmsil edən qonaqlarımızın da yer alması məmnunluğumu daha da artırır. Türk dünyasının ən müasir texnologiyalar istehsal edəcək gənc nəsillərlə mühüm nailiyyətlər əldə edəcəyinə ürəkdən inanıram. "TEKNOFEST"çilər bu günə qədər Türkiyədə son dərəcə gözəl layihələrə imza atdılar. Azərbaycanda da eyni uğuru əldə edəcəyimizə şübhə etmirəm. Türk Dövlətləri Təşkilatının da bu cür platformalarda təməlləri qoyulacaq yeni və daha böyük əməkdaşlıqlarla ortaq gələcəyimizdə daha güclü bir mövqeyə çatacağına inanıram.

Hörmətli Prezidentim, dəyərli qardaşım, sevgili gənclər, parlamentlərimizdə təsdiqlədiyimiz Şuşa Bəyannaməsində bildirdiyimiz kimi, müdafiə sənayesi sahəsində ortaq araşdırma və istehsal fəaliyyətlərinin reallaşdırılması istiqamətində səylərimiz qətiyyətlə davam edir. Hər sahədə olduğu kimi, kosmos və aviasiya sahələrində də Azərbaycan ilə sıx əməkdaşlıq edəcəyik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qardaş ölkələrimizdəki kosmos agentlikləri və müvafiq nazirliklər bir araya gəlirlər. Artıq bu torpaqlarda uğur, sülh və inkişaf hekayəsi yazmağın vaxtıdır. Keçmişdən və əvvəlki illərdə yaşadığımız acılardan dərs çıxaran bölgə xalqları olaraq hamımız gələcəyi birlikdə inşa etməliyik.

Müharibədə olduğu kimi, sülh dönəmində də Azərbaycanın yanındayıq. Regionda sülh və sabitlik üçün əziz qardaşım Əliyevin Ermənistanla qurmaq istədiyi dayanıqlı sülhü Türkiyə olaraq fəal şəkildə dəstəkləyirik.

Azərbaycanın bütün sahələrdə inkişaf yolunda nümayiş etdirdiyi uğurlara şəxsən şahidlik edirəm. Qarabağda və Şərqi Zəngəzurda Türkiyənin də rol aldığı bərpa-quruculuq işləri ilə "Böyük qayıdış" üçün daimi şərait yaradılır. Atalarımızın dediyi kimi, nə əkərik, onu biçərik.

Biz illərdir minalanmış bu torpaqlara artıq inkişafın, tərəqqinin, rifahın, sülhün toxumlarını əkirik. Qarabağın dünyaya açılan qapısı Füzuli Beynəlxalq Hava Limanını keçən il qardaşım İlham Əliyev ilə birlikdə açmışdıq. İndi sırada Zəngilan və Laçındakı hava limanı layihələri var. Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da işğaldan azad olunan torpaqlardakı potensialdan istifadə edilməsinə imkan verəcək. Bu bölgələrdə "ağıllı kənd"lərin qurulması ilə bağlı layihələrdə birlikdə çalışırıq, qarşıdakı dövrdə çalışmaqda davam edəcəyik.

Əziz qardaşımın da dediyi kimi, bölgəmizdə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəfimiz dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgəmizdə sabitliyin möhkəmləndirilməsidir. Bu hədəflərimizin həyata keçirilməsi üçün Azərbaycan ilə sıx həmrəylik, təmas və koordinasiyamızı davam etdirəcəyik.

Allah yolumuzu, bəxtimizi açıq etsin. Bu düşüncələrlə bu gözəl festivalın keçirilməsində əməyi olan bütün qurumlarımıza təşəkkür edirəm. "TEKNOFEST Azərbaycan"ın qardaş ölkələrimizə bir daha xeyirli olmasını Rəbbimdən arzu edirəm. Bu gözəl festivalın təşkilinə görə Azərbaycanın aidiyyəti qurumları ilə yanaşı, Sənaye və Texnologiya Nazirliyimizə və T3 Vəqfinin rəhbərliyinə, iştirakçı gənclərimizə və əməyi olan hər kəsə təşəkkürlərimi bildirirəm. Hamınızı hörmət və sevgi ilə salamlayıram. Salamat qalın.

***Ardı 4-cü səh.***

# Azərbaycan və Türkiyənin birliyinin,
























*Əvvəli 3-cü səh.*

Çıxışlardan sonra festivalın müxtəlif müsabiqələr üzrə qaliblərinin mükafatlandırma mərasimi oldu.

Mükafatları qaliblərə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və Nobel mükafatı laureatı professor Əziz Səncər təqdim etdilər.

Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və görkəmli alim Əziz Səncər xatirə fotosu çəkdirdilər.

Dövlət başçılarına və Əziz Səncərə "TEKNOFEST Azərbaycan" festivalının xatirə hədiyyələri təqdim olundu.

Birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, həmçinin Sümeyyə Bayraktar və Arzu Əliyeva xatirə fotoları çəkdirdilər.

# həmrəyliyinin növbəti zirvəsi








Sonra hər iki qardaş ölkənin rəsmi nümayəndələri birgə foto çəkdirdilər.

Mərasimdən sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan sərgi zonasındakı pavilyonlarla tanış oldular.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı çərçivəsində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə keçirilən aviaşou bu mötəbər tədbirin ən yaddaqalan hadisələrindən biri oldu.

Prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, qardaş ölkələrimizin rəsmi nümayəndə heyətləri və festival iştirakçıları aviaşounu izlədilər.




# Azərbaycan və Türkiyənin birliyinin,

## Prezidentlər Bakıda birgə açılış etdilər

Mayın 28-də Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılışda iştirak ediblər.

Dövlət başçılarına məlumat verildi ki, paytaxtda tikilmiş yeni "ASAN Həyat" Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının yeni inzibati binası yerləşir.

Bildirildi ki, tikintisinə 2019-cu ildə başlanılan kompleksin iki hissəsi - "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" və ASAN İnnovativ İnkişaf mərkəzlərinin inşası 2022-ci ilin mayında başa çatdırılıb. Üçüncü hissə isə cari ilin sonunadək hazır olacaq.

Kompleksdə yerləşən "ASAN xidmət" mərkəzi Bakıda yeddinci, ümumilikdə ölkə üzrə 23-cü mərkəzdir. Mərkəz Bakıda xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq inşa edilib və ərazi məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərəcək. Ümumilikdə 288 əməkdaşın və 50 könüllünün çalışacağı mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 325-dən çox xidmət həyata keçiriləcək.

Qeyd edək ki, mərkəzdə "ABAD" publik hüquqi şəxsin sayca 11-ci etnobutiki, habelə 2-ci "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti də nəzərdə tutulur. Fəaliyyətə 2018-ci ilin noyabrından başlayan "INNOLAND" tərəfindən bu günədək inkubasiya dövründə 50, akselerasiya dövründə isə 36 startap ilə iş həyata keçirilir. "INNOLAND" Türkiyə, Macarıstan, Makedoniya, Koreya Respublikası, ABŞ, Almaniya, Litva və Estoniya kimi ölkələrdən olan təşkilatlarla beynəlxalq əməkdaşlıq qurub.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "ASAN xidmət" və "Bilim Bakı" mərkəzlərini işə saldılar.

Sonra dövlət başçıları "Bilim Bakı" mərkəzi ilə tanış oldular.

Məlumat verildi ki, bu mərkəz Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə təsisçisi Selçuk Bayraktar olan Türkiyə Texnologiya Komandası Vəqfi arasında imzalanmış əməkdaşlıq barədə protokola əsasən yaradılıb. Mərkəzin fəaliyyəti ümumtəhsil mərkəzlərinin 6-14 yaş arası şagirdlərinin elmə, innovasiyaya və texnologiyaya marağını və biliklərini artırmağa yönəlib, elmi biliklərin təcrübədə necə tətbiq olunduğunu müşahidə etmək imkanı yaradır. Mərkəzdə hər biri 20 şagird yerlik 6 laboratoriya fəaliyyət göstərəcək. Bunlar təbiət elmləri, texnologiya, riyaziyyat, astronomiya, kosmos və aviasiya, dizayn və sahibkarlıq laboratoriyalarıdır.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan laboratoriyalarda təcrübə aparan şagirdlərlə söhbət etdilər.

Bildirildi ki, "Bilim Bakı" mərkəzində perspektiv ehtiyacları nəzərə alan, layihə əsaslı, gündəlik həyat problemlərinin həllinə yönələn və şagirdlərə XXI əsrin bacarıqlarına yiyələnmək imkanı verən "Deneyap Texnologiya" proqramı həyata keçiriləcək. Burada 11 əməkdaş fəaliyyət göstərəcək və Türkiyə Texnologiya Komandası Vəqfinin təlim proqramı əsasında tədris aparılacaq. Müvafiq təlim proqramı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılıb.

Kompleksdə ASAN İnnovativ İnkişaf Mərkəzi də fəaliyyət göstərəcək. Bu mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında vətəndaşlara xidmət sahəsində kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə töhfə vermək, bilik və bacarıqların artırılması istiqamətində təlimlər həyata keçirməkdir.

Dövlət başçılarına məlumat verildi ki, Azərbaycanın intellektual brendi olan ASAN konsepsiyası həm də ixrac səbətində yer alır. Agentliyin ekspertləri tərəfindən müxtəlif ölkələrdə təlimlər keçirilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir. İndiyədək dövlət agentliyi və tabeliyindəki qurumlar öz fəaliyyətləri çərçivəsində 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilələr imzalayıblar.

Sonda Azərbaycan və Türkiyə prezidentlərinə xatirə hədiyyələri təqdim olundu.

Qeyd edək ki, hazırda Azərbaycanda 22 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir, 5-nin isə inşası davam etdirilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 88 mindən çox vətəndaşın 52 milyondan çox müraciəti daxil olub. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə də vətəndaşlara xidmətlər göstərilir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.












# həmrəyliyinin növbəti zirvəsi

## Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın görüşü olub

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub.







AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Türkiyə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı 28 May - Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olması qardaşlığımızın rəmzi kimi qiymətləndirildi.

Dövlət başçıları Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalının önəmini qeyd etdilər və bu tədbiri yüksək səviyyədə olan əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdilər.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyi qeyd olundu, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə nahar yeməyi oldu.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

## Səfər başa çatdı

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına işgüzar səfəri mayın 28-də başa çatdı.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sağlamlıq imkanları məhdud rəssam Ramil Əhmədov müəllifi olduğu Rəcəb Tayyib Ərdoğanın portretini Türkiyə dövlətinin başçısına hədiyyə etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

## "TEKNOFEST" Azərbaycanın müdafiə sənayesi sahəsində böyük potensialın olduğunu göstərir

"Azərbaycanda keçirilən "TEKNOFEST" müdafiə sənayesi sahəsində böyük potensialın olduğunu göstərir".

Bu sözləri "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar AZƏRTAC-a açıqlamasında deyib.

O, bildirib ki, Azərbaycanı müdafiə sənayesi sahəsində daha da gücləndirərək, birgə daha böyük layihələr həyata keçirmək olar: "Dünya Qarabağ müharibəsində türkün gücünü gördü. Əminəm ki, türk gəncliyi texnologiyanın bütün sahələrində dünyaya töhfə verəcək".

## "TEKNOFEST" - Azərbaycan və Türkiyə birliyinin elmi-texnoloji jesti

"TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı tək millət, iki dövlət olan Azərbaycan və Türkiyənin birliyi, həmrəyliyi və qarşılıqlı əməkdaşlığının növbəti zirvəsidir.

Festival illərdən bəri yüksək səviyyədə siyasət, diplomatiya, iqtisadiyyat, hərbi sənaye, sahibkarlıq sahələrində davamlı birlik və əməkdaşlıq nümayiş etdirən Azərbaycan və Türkiyənin elm, təhsil və texnologiya sahəsində də əməkdaşlığının daha da genişləndirilərək yeni mərhələyə qaldırılmasına böyük təkan vermiş və geniş perspektivlər açmışdır. "TEKNOFEST Azərbaycan" festivalı həmçinin müstəqillik illərində Azərbaycan Respublikasında hərbi sənaye, rəqəmsal inkişaf və informasiya texnologiyaları sahəsində əldə edilmiş böyük nailiyyətlərin möhtəşəm nümayişinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "TEKNOFEST Azərbaycan" festivalının müstəqil dövlətimizin qardaş Türkiyə Cümhuriyyəti ilə elm, təhsil və texnologiya sahəsindəki qarşılıqlı əməkdaşlığının zirvəsi adlandırması bu böyük texnoloji hadisəyə verilmiş yüksək siyasi qiymətin ifadəsidir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "TEKNOFEST Azərbaycan" festivalını "Bir Ananın iki oğlunun müasir mərhələdəki inkişafının, birlik və həmrəyliyinin real nümayişi kimi dəyərləndirməsi ölkələrimiz arasında elm, təhsil və texnologiyaların inkişaf etdirilməsi sahəsində də sarsılmaz birliyin geniş imkanlara malik olduğunu nümayiş etdirir. Bütün bunlara görə "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı Azərbaycan və Türkiyənin XXI əsrdəki inkişafını, qardaşlıq və əməkdaşlığını yeni tarixi mərhələyə çıxarmış möhtəşəm hadisədir.

Respublikamızın ali və orta məktəblərinin kollektivlərinin "TEKNOFEST Azərbaycan" festivalında çoxsaylı texnoloji layihələrlə iştirak etmələrinin xüsusi əhəmiyyəti var. Bu, artıq Azərbaycanda elm, təhsil və texnologiya sahəsində ən müasir biliklərə və qabiliyyətlərə malik olan yeni nəslin yetişib formalaşdığını göstərir. Ali məktəb tələbələrinin və orta məktəb şagirdlərinin seçilmiş layihələrinin fərqli nominasiyalar üzrə müxtəlif yerlərə layiq görülməsi və mükafatlandırılması ölkəmizin elmi-texniki inkişafının gələcək imkanlarını təsəvvür etməyə imkan yaradır.

Azərbaycan Milli Elmlər Akademiyası elmi tədqiqat institutlarının "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında nümayiş etdirdiyi layihələr də iştirakçıların böyük marağına səbəb olmuşdur. Müxtəlif ölkələrdən olan və ya respublikamızı təmsil edən tanınmış alimlərin və mütəxəssislərin akademiya layihələrindəki texnoloji yeniliklərin və tətbiq imkanlarının əhəmiyyətli olduğunu qeyd etmələri bu elmi qurumda da həmin istiqamətdə gedən dinamik prosesləri əks etdirir.

Başqa bir mühüm məqamı da xüsusi qeyd etməyi lazım bilirəm. Bu, Türkiyə hərbi sənayesinin ulduzu olan Selçuq Bayraktarın və Nobel mükafatı laureatı, dünya şöhrətli elm xadimi Əziz Səncərin festivalda iştirak etməsi ilə əlaqədardır. Nəinki Türkiyədə, hətta dünya pilotsuz hərbi texnikasının yaradılması sahəsində də müasir dövrün əfsanələrindən biri kimi qəbul olunan Selçuk Bayraktarın və tibbi-biologiyanın kimyəvi reaksiyalarla əlaqəli şəkildə inkişaf etdirilməsi sahəsində yeni istiqamət açmış görkəmli elm xadimi professor Əziz Səncərin "TEKNOFEST Azərbaycan" festivalı günlərində Azərbaycan gəncliyi ilə görüşləri, onların sərgiyə çıxarılmış texnoloji layihələrinə dair dəyərləndirmələri ölkəmizdə yeni elmi nəslin, müasir dövrün mühəndis-konstruktorlarının formalaşdırılmasına və inkişaf etdirilməsinə müstəsna dərəcədə təsir göstərən, təkan verən böyük hadisədir. Böyük inamla demək olar ki, "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı Azərbaycanda və Türkiyədə yeni dövrün Selçuk Bayraktarlarını və Əziz Səncərlərini hazırlayıb yetişdirəcək çox əhəmiyyətli bir müasir platformadır.

Eyni zamanda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin böyük təşkilatçılıq fəaliyyətinin və gələcəyə baxışının mükəmməl bir hesabatı kimi tarixə daxil olmuşdur.

"TEKNOFEST" - Azərbaycan və Türkiyə birliyinin müasir inkişafdakı yerini və geniş imkanlarını nümayiş etdirən möhtəşəm hadisədir.

"TEKNOFEST" - Azərbaycan və Türkiyə birliyinin və əməkdaşlığının yeni tarixi epoxadakı inkişafının mükəmməl elmi və texnoloji jestidir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti, akademik***

## "TEKNOFEST Azərbaycan" festivalının bağlanış mərasimi keçirilib









Mayın 29-da Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev son 4 gündə çox həyəcanlı, sevinc dolu hisslər yaşanıldığını deyib: "Bu günlərdən özümüzlə qürur hissi, gələcəyə olan inam hissi aparırıq. Bu festival bizə Azərbaycan gəncliyinin gücünü, biliyini bir daha göstərdi. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində belə bir festivalı ərsəyə gətirdiyimiz üçün çox xoşbəxtik. Prezident İlham Əliyev başda olmaqla festivalda iştirak edən hər kəsə təşəkkür edirik".

Daha sonra "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar çıxış edib.

"Həyatımıza məna qatan "TEKNOFEST Azərbaycan"ın sonudur. Festival yekunlaşdığı üçün təəssüflənsək də, qardaşlığımız davam etdiyinə görə xoşbəxtik", - deyə "Baykar"ın texniki direktoru vurğulayıb.

Gələcəkdə "TEKNOFEST"in yenidən Bakıda, Şuşada keçiriləcəyini bildirən S.Bayraktar bildirib ki, festivalda qazanılan təcrübələr Azərbaycan gəncliyinin gələcəkdə rəhbəri olacaq, gənclər bu istiqamətdə öz fəaliyyətini bundan sonra da davam etdirəcəklər.

"Dünən Azərbaycanın Müstəqillik Gününü qeyd etdik. Bu gün də İstanbulun fəthinin 569-cu ildönümüdür. Bütün şəhidlərimizi rəhmətlə anırıq, ruhları şad olsun", - deyə S.Bayraktar söyləyib.

O diqqətə çatdırıb ki, növbəti "TEKNOFEST" avqust ayında Türkiyənin Samsun şəhərində keçiriləcək.

Sonda festivalın bağlanışı münasibətilə konsert proqramı və lazer şou təşkil olunub.

# Müstəqilliyimiz əbədidir, dönməzdir

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidənin önünə gül dəstəsi qoydu.

* * *

Yüz dörd il əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, Ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq.

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasət nəticəsində bu gün müasir Azərbaycan 104 il əvvəl Xalq Cümhuriyyəti qurucularının arzuladığı, xəyal etdiyi qüdrətli dövlətə, dünyada söz və nüfuz sahibinə çevrilib. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik və qətiyyətli siyasət sayəsində müstəqilliyimiz əbədi, dönməz xarakter alıb.

Prezident İlham Əliyev müsəlman Şərqində ilk parlamentli respublika olan Cümhuriyyətin irsinin təbliğini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olundu və Cümhuriyyətin 100 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunan "Müstəqillik Günü haqqında" qanunla mayın 28-i Müstəqillik Günü elan edildi.

Azərbaycan xalqı ikinci ildir ki, 28 May - Müstəqillik Gününü qalib xalq kimi qarşılayır. Bu əziz bayram erməni işğalından azad edilən torpaqlarımızda da qeyd olunur. Üçrəngli bayrağımız işğaldan azad edilmiş ərazilərimizdə qürurla dalğalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyev ənənəsinə sadiq qalaraq mayın 27-də - Müstəqillik Günü ərəfəsində Zəngilana səfər etdi. Rayonun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılışı oldu. Bununla da "Böyük qayıdış" adlanan prosesə start verildi. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri də məhz siyasi-iqtisadi müstəqilliyimizin nəticəsi, dövlətimizin gücünün göstəricisidir. Doğrudan da, Azərbaycan tarixin heç bir dövründə indiki qədər güclü və qüdrətli olmayıb.

Bu gün Müstəqillik Günü xüsusi əhvali-ruhiyyə, böyük sevinc və qürur hissi ilə qeyd olunur. Qardaş ölkənin - Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu əlamətdar gündə Azərbaycana gəlməsi və Müstəqillik Günündə xalqımızla bərabər olması milli bayramımıza xüsusi dəyər qatır, Azərbaycan-Türkiyə qardaşlığını bütün dünyaya bir daha nümayiş etdirir.

Müstəqil Azərbaycan hər birimizin qürur mənbəyidir. Müstəqillik ən böyük dəyərimiz və sərvətimizdir. Xalqımız qanı-canı bahasına əldə etdiyi bu sərvəti əzmlə qoruyur və əbədi qoruyacaq.

# Hərbi sahədə Azərbaycan - Türkiyə əməkdaşlığı genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Hulusi Akarın səfərinin hərbi sahədə əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Türkiyənin milli müdafiə naziri 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Qeyd edildi ki, bu bayram günündə də bir yerdə olmağımız qardaşlıq rəmzidir.

Söhbət zamanı Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalının önəminə toxunuldu və bu tədbir yüksəksəviyyəli münasibətlərimizin bariz nümunəsi kimi qiymətləndirildi.

Görüşdə digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığımızın uğurla davam etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Avropanın enerji təhlükəsizliyində böyük rol oynayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul edib.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı "Cənub qaz dəhlizi"nin fəaliyyətinə toxunuldu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolu vurğulandı. Ölkəmizdən Avropaya qaz ixracının artırılması ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, qlobal enerji layihələrinin həyata keçirilməsində, o cümlədən Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdırılmasında ABŞ hökumətinin Azərbaycana verdiyi daimi dəstək yüksək qiymətləndirildi. Azərbaycanda elektrik enerjisi və bərpaolunan enerji sahəsində həyata keçirilən genişmiqyaslı işlərdən danışıldı.

Söhbət zamanı Bakıda ənənəvi keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəmi qeyd edildi və bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi bildirildi.

# Azərbaycan ilə Xorvatiyanı dostluq münasibətləri birləşdirir

**Xorvatiya Respublikasının Prezidenti zati-aliləri cənab Zoran Milanoviçə**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Xorvatiyanı dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri birləşdirir. Xoş ənənələrə əsaslanan əlaqələrimizin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlığın möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əsasda səmərəli işbirliyimizin genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl surətdə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Xorvatiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2022-ci il*

# "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin audiovizual arxiv materiallarının rəqəmsallaşdırılması və vahid bazasının yaradılması ilə bağlı tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə məxsus AzTV, Mədəniyyət TV, İdman TV, "Azərbaycan Radiosu" və "Beynəlxalq Radio"nun ümumilikdə bir əsrə yaxın dövr ərzində formalaşmış zəngin audiovizual arxiv materiallarının keyfiyyətli, etibarlı və uzunmüddətli qorunub saxlanması işinin təkmilləşdirilməsi, əksər hissəsi Azərbaycan xalqının maddi-mənəvi sərvətinə çevrilmiş həmin materialların rəqəmsallaşdırılması və vahid bazasının yaradılması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin audiovizual arxiv materiallarının rəqəmsallaşdırılması və vahid bazasının yaradılması üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2022-ci il*

# İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Seyid İbrahim Rəisiyə

Hörmətli cənab Prezident!

Abadan şəhərində onmərtəbəli binanın çökməsi nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2022-ci il*

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri hərbi qulluqçularla görüş keçirib

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hissinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə tədbirlər planına uyğun olaraq komitə nümayəndələri N hərbi hissəsində şəxsi heyətlə görüşərək "Dini ekstremizmlə mübarizədə hərbi qulluqçuların yeri və rolu" mövzusunda geniş söhbətlər aparıb. Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

# İnkişaf və Diplomatiya İnstitutunun təşkil etdiyi "Xəzər Hövzəsi Araşdırmaları" Proqramı başa çatıb





ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu ("IDD") tərəfindən təşkil edilən "Xəzər Hövzəsi Araşdırmaları" Proqramı başa çatıb.



Bu barədə AZƏRTAC-a ADA Universitetindən məlumat verilib. Bildirilib ki, mayın 24-ü başlayan proqramın açılış mərasimində ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə və institutun İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova iştirakçıları salamlayıblar.

Proqramda ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun katib, müşavir və attaşelərdən ibarət ümumilikdə 10 nümayəndəsi iştirak edib. Həmin ölkələr sırasında Əlcəzair, İraq, Misir, Macarıstan, Monteneqro, Polşa, Rusiya, Rumıniya, Sudan və Tacikistanı qeyd etmək mümkündür.

Mayın 27-si başa çatan proqram ərzində iştirakçılar Azərbaycanın çoxşaxəli və zəngin tarixi, mədəniyyəti, eləcə də işğaldan azad edilmiş Qarabağın inkişafı ilə bağlı məlumat əldə ediblər.

Proqram çərçivəsində Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Rəşad Novruz, Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid və BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi ofisinin koordinasiya analitiki Şəmsiyyə Mustafayeva milli mənsubiyyət, mədəniyyətlərarası ünsiyyət, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma, eləcə də həmin ərazilərə məcburi köçkünlərin köçürülməsi ilə bağlı mühazirələrlə çıxış ediblər.

Proqram ADA Universiteti müəllimləri, İnkişaf və Diplomatiya İnstitutunun proqram direktorları, həmçinin protokol qaydaları üzrə təlimçilərin mühazirələri ilə davam edib.

Sonda proqramı başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

## Maya Sandu İlham Əliyevi təbrik etdi

Mayın 30-da Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Maya Sandu Prezident İlham Əliyevi və Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edib və ən səmimi arzularını çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Söhbət zamanı ikitərəfli əməkdaşlıq məsələlərinə toxunulub, enerji, iqtisadi və ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Həmçinin regional və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

İran və Azərbaycan xalqlarının ortaq dini və tarixi, eləcə də xalqlarımız arasında mövcud olan qırılmaz tellər hazırkı yeni dövrdə iki ölkə arasındakı münasibətlər üçün dərin dayaq və möhkəm əsaslar yaratmışdır. Xalqlarımız arasındakı həmin tellərə söykənərək, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən bəri İran İslam Respublikası hər zaman qarşılıqlı mənafeyimiz çərçivəsində ikitərəfli münasibətlərimizin bütün sahələrdə genişləndirilməsinə səy göstərmişdir.

Sevindirici haldır ki, Azərbaycan Respublikasının ərazilərinin işğalına son qoyulduqdan sonra iki ölkənin əməkdaşlıq imkanları və sahələri daha da genişlənmişdir. Ümidvaram ki, iki ölkə xalqlarının qarşılıqlı mənafeyinə və istəyinə uyğun olaraq, hər iki tərəfin səyləri nəticəsində həmin imkanlardan istifadə ediləcəkdir.

Sonda İran İslam Respublikasının xarici siyasətində Azərbaycan Respublikasının önəmli yer tutduğunu vurğulayaraq, qardaş Azərbaycan Respublikası ilə qonşuluq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində səy göstərdiyimi bildirirəm.

Allah-Taaladan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan Respublikasının bütün xalqına isə uğurlar və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Seyid İbrahim RƏİSİ,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

2022-ci il önəmli bir ildir, Azərbaycan ilə Fransa arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. Ötən illər ərzində biz möhkəm ikitərəfli əlaqələr, siyasi, iqtisadi və mədəni sahələrdə geniş əməkdaşlıq qurmağa nail olmuşuq. Ölkələrimizi birləşdirən əlaqələri daha da dərinləşdirməyi arzu edirəm.

Bu fürsətdən istifadə edərək, Fransanın Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqlara və münasibətlərin normallaşmasına dair sarsılmaz sadiqliyini bir daha təsdiqləyirəm. Əmin ola bilərsiniz ki, Azərbaycan ilə Ermənistan arasında istər xarici işlər nazirləri səviyyəsində birbaşa təmasların qurulması, istərsə də sərhəd məsələsi üzrə ikitərəfli komissiyanın yaradılması istiqamətində son aylarda yaranmış və nəticələrini gördüyümüz müsbət dinamikanı dəstəkləyirəm. Etimad mühitinin yaradılması regionda sülhün qurulması üçün vacibdir.

Hücuma məruz qalan Ukraynaya və onun əziyyət çəkən xalqına Azərbaycanın humanitar sahədə göstərdiyi dəstəyi yüksək qiymətləndirirəm. Müharibənin qitəmizdə təhlükəsizliyi və sabitliyi ciddi şəkildə sarsıtdığı bir vaxtda arzu edirəm ki, bu gün xüsusi əhəmiyyət daşıyan siyasi dialoqumuzu daha da gücləndirək.

Cənab Prezident, xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən möhkəm cansağlığı, sülh və firavanlıq diləyirik. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Sizi təbrik edirik.

Ötən üç onillikdə ölkələrimiz arasında əməkdaşlıqda yüksəliş tendensiyası müşahidə olunur. Şadam ki, Moldova Respublikası və Azərbaycan Respublikası son vaxtlar ticarət, investisiya, enerji, kənd təsərrüfatı və mədəniyyət kimi bir çox sahələrdə ikitərəfli əməkdaşlığı daha da intensivləşdirmək niyyətindədirlər.

Mən həmçinin COVID-19 pandemiyasının nəticələri ilə mübarizədə köməyə və Ukraynadan olan qaçqınlara tibbi yardım göstərilməsində humanitar dəstəyə görə Sizə təşəkkür etmək istəyirəm.

Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin daha da inkişaf edəcəyinə əminəm.

Hörmətli cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, Azərbaycana və xalqınıza davamlı sülh və firavanlıq arzulayıram.

Qəti inanıram ki, Latviya ilə Azərbaycan arasında qurulmuş sıx əməkdaşlıq qarşıdakı illərdə daha da inkişaf edəcək və möhkəmlənəcəkdir. Siyasi, iqtisadi və mədəni sahələrdə dialoqumuzu daha da intensivləşdirmək xalqlarımızın maraqlarına uyğundur.

Bu gün Rusiya-Ukrayna müharibəsinin regionda sülh və sabitliyi təhdid etdiyi bir vaxtda biz ortaq dəyərlərimizi, həmçinin Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin əsasında dayanan beynəlxalq nizamın təməl prinsiplərini qorumaq üçün birlik nümayiş etdirməliyik.

Əminəm ki, biz birgə səylərimizlə xalqlarımızın sülh və təhlükəsizlik şəraitində yaşamasını təmin edəcəyik.

Zati-aliləri, Sizə və Azərbaycan xalqına möhkəm cansağlığı və tərəqqi arzulayıram.

Xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Egils LEVİTS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının müstəqilliyinin 104-cü ildönümü münasibətilə Vyetnam dövləti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Azərbaycanın yaxın dostu olan Vyetnam gözəl ölkənizin inkişafını həmişə izləyir, Sizin rəhbərliyinizlə ölkənin inkişafında, insanların həyatının yaxşılaşmasında, respublikanın beynəlxalq aləmə inteqrasiyasında, onun regionda və dünyada rolunun və mövqeyinin möhkəmlənməsində Azərbaycan xalqının böyük uğurlarına heyranlığını bildirir.

Vyetnam ilə Azərbaycan arasında bu ölkələrin hər birinin tərəqqisinə, regionda və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə töhfə verən ənənəvi dostluq və çoxtərəfli əməkdaşlığın müsbət inkişafına çox şadam.

Tam əminəm ki, Vyetnam ilə Azərbaycan arasında ənənəvi əməkdaşlıq iki ölkənin rəhbərliyinin iradəsi, qətiyyəti, nazirliklərin, idarələrin və regionların birgə səyləri, habelə iki xalqın həmrəyliyi sayəsində ölkələrimizin və xalqlarımızın rifahı, firavanlığı, bütün dünyada sülh və tərəqqi naminə gündən-günə möhkəmlənəcək və genişlənəcəkdir.

Azərbaycana firavanlıq, Azərbaycan xalqına isə xoşbəxtlik arzu edirəm.

Cənab Prezident, icazə verin, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və məsul vəzifənizdə böyük uğurlar diləyim.

*Hörmətlə,*

***Nquyen Suan FUK,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Maldiv hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizi, Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

***İbrahim Məhəmməd SOLİH,***
***Maldiv Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Bolqarıstan xalqı adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bolqarıstan Respublikası strateji tərəfdaşı olan Azərbaycan Respublikası ilə münasibətlərinə böyük önəm verir. Bunu son 30 ildə ölkələrimiz arasındakı intensiv və səmərəli dialoq da təsdiq edir.

Əminəm ki, Bolqarıstan ilə Azərbaycan arasında hər iki ölkənin gələcək inkişafına töhfə verəcək qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlıq üçün çox yaxşı imkanlar var. İnanıram ki, Sizin bu il Bolqarıstana səfər etməyinizlə bağlı dəvətim bizə yeni perspektivlər barədə müzakirələr aparmağa imkan verəcək.

Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu il biz həm də ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Son üç onillikdə Pakistan ilə Azərbaycan arasında qardaşlıq əlaqələri daha da möhkəmlənib.

Əminəm ki, siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli əməkdaşlığımız Sizin müdrik rəhbərliyinizlə bundan sonra da dərinləşəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar gündə Azərbaycan xalqına əmin-amanlıq, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd Yunis əl-MƏNFİ,***
***Liviya Prezident Şurasının sədri***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Respublikasına son səfərimiz zamanı nümayəndə heyətimizə göstərdiyiniz möhtəşəm və səmimi qonaqpərvərliyə görə Sizə və komandanıza minnətdarlığımı bildirirəm. Ölkənizə səfər etmək və Sizin qəbulunuzda olmaq şəxsən mənim və Estoniya nümayəndə heyəti üçün böyük şərəfdir.

Əminəm ki, bu görüş ölkələrimiz arasında münasibətlərin bundan sonra da güclənməsinə mühüm töhfə verəcəkdir.

İnanıram ki, təcrübə mübadiləsi və birgə səylərimiz əlaqələrimizi daha da möhkəmləndirəcək və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq imkanlarını genişləndirəcəkdir.

Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Yuri RATAS,***
***Estoniya Respublikası Parlamentinin Sədri***

❖ ❖ ❖

Əziz qardaşımız!

Ölkənizin müstəqilliyinin 104-cü ildönümü - 28 May - Müstəqillik Günü münasibətilə Nikaraqua Respublikasının xalqı, Barışıq və Milli Birlik Hökuməti adından və şəxsən öz adımızdan Sizə, Azərbaycan xalqına və hökumətinə səmimi təbriklərimizi çatdırırıq.

Bu tarixi və əlamətdar gündə biz Azərbaycan xalqının öz müqəddəratını təyinetmə, milli suverenlik və müstəqillik uğrunda mübarizədə əldə etdiyi qələbə sevincinə qoşuluruq. Bir daha bildiririk ki, Nikaraqua xalqı və hökuməti Azərbaycan xalqı və hökuməti ilə beynəlxalq hüququn fundamental prinsiplərinə hörmət əsasında çoxtərəfli, ədalətli və bərabər dünya nizamı yaradılması, dünyada sülhün, həmrəyliyin və əməkdaşlığın qurulması istiqamətində bundan sonra da birgə çalışmaq niyyətindədir.

Daim müstəqil və firavan Nikaraqua olaraq qardaş Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırırıq.

Xahiş edirik ən yüksək hörmət və ehtiramımızı qəbul edin.

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***

***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Yamayka hökuməti və xalqı adından Azərbaycan hökuməti və xalqına səmimi təbriklərimi çatdırıram.

Yamayka əsası 1995-ci ildə qoyulmuş diplomatik münasibətlərimizə böyük önəm verir və qarşıdakı illərdə əməkdaşlığı daha da möhkəmləndirmək niyyətindədir.

Zati-aliləri, xahiş edirəm, Azərbaycan hökumətinə və xalqına davamlı sülh və firavanlıq arzularımı qəbul edin.

***Endryu HOLNESS,***
***Yamaykanın Baş naziri***

❖ ❖ ❖

Hörmətli Prezident, əziz dost!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi təbrik edirəm.

Sizin səylərinizlə Azərbaycanda bütün sahələrdə uğurların şahidi olmaqdan məmnunluq duyuram.

Cənab Prezident, Qarabağda davam edən quruculuq işlərini xüsusilə vurğulamaq istəyirəm.

Qeyd etmək istərdim ki, Azərbaycan ilə Xorvatiya arasında əlaqələr xalqlarımızın mənafeyi naminə əməkdaşlığa güclü təkan verir.

Zati-alinizə səmimi təbriklərimi çatdırır, Sizə və bütün dost Azərbaycan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycanın milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) Katibliyi adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

104 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Şərqdə və türk dünyasında demokratik dəyərlərə əsaslanan ilk respublikanın yaradılması ilə əlamətdar olmuşdur. Cümhuriyyətin yaradılması Azərbaycan xalqının müstəqillik əzmini nümayiş etdirərək, onun həyatında yeni bir mərhələ olmuş və mühüm tarixi hadisəyə çevrilmişdir. Hazırda Ulu Öndər Heydər Əliyevin davamçısı olaraq zati-alinizin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutub. Ölkənizdə demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu uğurla davam etdirilməkdədir.

Təşkilatımıza daim göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı ifadə edirəm. İnanıram ki, Sizin hərtərəfli dəstəyiniz və töhfələriniz sayəsində türkdilli ölkələr arasında əməkdaşlıq genişlənərək daha da inkişaf edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh, sabitlik, tərəqqi və rifah arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Mehmet Süreyya ER,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda Azərbaycan xalqını təbrik edim.

104 il əvvəl mayın 28-də yeni müstəqil dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildi, bununla da Şərqdə və bütün müsəlman dünyasında ilk demokratik dövlət quruldu. Gənc dövlətin təməlində hələ Avropanın bir çox qabaqcıl və inkişaf etmiş ölkələrində belə tətbiq edilməmiş mütərəqqi ideyalar, prinsiplər və bəşəri dəyərlərlə bağlı uzun illər mövcud olan milli istiqlaliyyət arzuları dayanırdı.

İlk respublikanın ömrü uzun sürməsə də, onun ideyaları və arzuları insanların yaddaşından heç vaxt silinmədi, çoxsaylı təzyiq və maneələrə baxmayaraq, onilliklərdən sonra yenidən dirçəldi və reallaşdı.

Müasir Azərbaycan Respublikası milli atributları və müstəqillik ideyalarını qoruyub saxlamaqla Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edilib. Respublika dramatik və faciəvi, eyni zamanda şərəfli və qəhrəmanlıqlarla dolu yeni mərhələyə daxil olub. Ölkənin 30 illik yeni tarixində bir çox dəyişikliklər baş verib, milli dirçəliş, iqtisadi inkişaf, güclü dövlətin qurulması, ən əsası, tarixi torpaqların azad edilməsi və ərazi bütövlüyünün bərpası yolunda qazanılan şanlı qələbə bunun kulminasiya nöqtəsidir. Bu müddət ərzində ölkə rəhbərliyi strateji baxışı, müdrikliyi, eləcə də səbir və fədakarlığı ilə öz xalqına xidmət prinsipini əsas tutaraq sarsılmaz qətiyyət və böyük işgüzarlıq nümayiş etdirmişdir.

Bu gün Azərbaycan müasir və davamlı inkişaf edən, dinamik və şaxələndirilmiş iqtisadiyyata, fəal cəmiyyətə malik olan mühüm aktor, eləcə də beynəlxalq aləmdə sülh, sabitlik, əməkdaşlıq, dialoq və anlaşmanı təşviq edən nüfuzlu dövlətdir.

Bir çoxları müstəqillik uğrunda mübarizəni ölkənin yaşamaq instinktinin güclü təzahürü, çoxsaylı təzyiq və çağırışlara, eləcə də ən çətin anlarda ancaq özünə güvənərək tab gətirmək qabiliyyəti hesab edirlər. Bu gün müstəqil Azərbaycanın bu təcrübəsi mövcudluqla bağlı təhdidlərlə üzləşən və öz hüquqlarını müdafiə edən dövlətlər üçün ilham mənbəyi və nümunədir.

Bu gün beynəlxalq nizamın kobud şəkildə pozulduğu, beynəlxalq sülhün, sabitliyin və təhlükəsizliyin ciddi şəkildə təhlükə altına düşdüyü bir vaxtda bu, xüsusi əhəmiyyət kəsb edir. Belə kritik vəziyyətlər beynəlxalq sülh və nizamın olmasını, eləcə də ölkələrin müstəqillik uğrunda hüquqlarını müdafiə edən dünya liderlərindən birlik, həmrəylik, mətanət, dəyişməz və barışmaz mövqe tələb edir.

Zati-aliləri, məhz bununla əlaqədar olaraq beynəlxalq hüququn norma və prinsiplərinin, bəşəri dəyərlərin müdafiəsində nümayiş etdirdiyiniz güclü mənəvi və prinsipial mövqeyinizə, eləcə də köməyə ehtiyacı olanlara göstərdiyiniz əhəmiyyətli dəstəyə görə Sizə minnətdarlığımızı bildirmək istəyirik. Bu, bir çox liderlər üçün gözəl nümunədir.

Biz həmçinin təşkilatımız çərçivəsində dost ölkələr və strateji tərəfdaşlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsində və gücləndirilməsində oynadığı rola görə Azərbaycan Respublikasına minnətdarlığımızı bildiririk. Qəti şəkildə inanırıq ki, əməkdaşlığımızı daha səmərəli və məhsuldar etmək üçün regional təşkilat kimi GUAM-ın potensialından daha çox istifadə etməliyik. Bununla biz regional və beynəlxalq sülhə, təhlükəsizliyə və sabitliyə töhfə verə bilərik.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, bir daha Sizi və Sizin simanızda Azərbaycan xalqını milli bayram münasibətilə təbrik edir, sülh və daha böyük tərəqqi arzulayırıq. Biz həmçinin Sizə müstəqil, güclü və inkişaf edən Azərbaycanla bağlı arzularınızın və strategiyanızın həyata keçirilməsi istiqamətində fəaliyyətinizdə uğurlar diləyirik. Müstəqillik Gününüz mübarək!

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Beynəlxalq Türk Akademiyası adından və şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Azərbaycan xalqının misilsiz qəhrəmanlığı sayəsində 104 il əvvəl qurulan Azərbaycan Xalq Cümhuriyyəti bütün türk-müsəlman aləmində milli azadlıq düşüncəsinin və dövlətçilik ideyalarının bayraqdarı olmuş, xalqlarımızın tarixində silinməz iz buraxmışdır.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qısa müddətdə regionun ən inkişaf etmiş ölkəsinə çevrilmiş, dövlət quruculuğu yolunda bənzərsiz addımlar atmışdır.

44 günlük Vətən müharibəsində Sizin rəhbərliyinizlə qazanılan möhtəşəm zəfər isə qəhrəmanlıq salnaməsinə dönmüş, türk dövlətçilik tarixinə adınızın qızıl hərflərlə yazılmasına vəsilə olmuşdur. İndi xalqlarımız qardaş Azərbaycanın Müstəqillik Gününü daha fərqli hisslərlə və böyük sevinclə qeyd edir.

Bu xoş fürsətdən istifadə edərək, Sizi bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin bütün kollektivi adından və şəxsən öz adımdan Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edim.

Bu gün milyonlarla insanın qəlbini Vətəninə qürur və məhəbbət hissi ilə coşduran, ölkənin indisinə və gələcəyinə xüsusi hörmət mənası daşıyan gündür. Siz Azərbaycan Respublikasının Prezidenti olaraq bundan sonra da sosial-iqtisadi tərəqqiyə daim can atan, böyük imkanlar və yeni perspektivlər açan güclü dövlətin çoxtərəfli inkişafına töhfə verirsiniz.

Bu xoş fürsətdən istifadə edərək, əməkdaşlığımıza diqqətli və səmimi münasibətinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Moskva Universitetinin Bakı filialı bütün fəaliyyəti dövründə elmin və təhsilin, dövlətlərimiz arasında sülhün və harmoniyanın inkişafına uğurla xidmət edir.

Möhtərəm İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün xalqına xoşbəxtlik, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoş əhvali-ruhiyyə və sülh, sabitlik, Azərbaycan xalqının tərəqqisi naminə səmərəli fəaliyyətinizdə uğurlar arzu edim.

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti bundan sonra da respublikanın həyatını və orada baş verən hadisələri maksimum obyektiv və geniş işıqlandıracaq.

*Səmimi hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurası, Rusiyalı Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası, "Moskva Hüquq Mərkəzi" Vəkillər Kollegiyası adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin səmərəli rəhbərliyinizlə Azərbaycan genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr günbəgün genişlənir və möhkəmlənir. Heç şübhəsiz, 2022-ci ilin fevralında imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətinin yüksəlməsinə kömək edəcək. Bu, dost xalqlarımızın mənafelərinə tamamilə uyğundur. Mən Sizin həmvətəniniz kimi öz tarixi Vətənimlə fəxr edirəm, onu əziz tuturam.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasında islahatçılıq yolunun layiqli davamçısısınız. Sizin əsl vətənpərvər və vətəndaş kimi fəal həyat mövqeyiniz, dövləti əhəmiyyətli vəzifələri yüksək səviyyədə icra etməyiniz Vətənə layiqli xidmət nümunəsidir.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi həmişə Sizinlə olsun. Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycan xalqının səadəti naminə ali dövləti fəaliyyətinizdə uğurlar və yeni zəfərlər arzu edirəm.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının sədri, Rusiyalı Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, Rusiyanın fəxri ədliyyə işçisi, hüquq elmləri doktoru, professor***

### Milli Məclisin iclasında

# Qafqazın ən böyük büdcəsi uğurla icra olunub

## Parlamentin yaz sessiyası başa çatdı

**Mayın 31-də Milli Məclisin yaz sessiyasında sonuncu plenar iclas keçirilib. Parlamentin Sədri Sahibə Qafarova gündəliyə 7 məsələnin daxil edildiyini bildirib.**



Sahibə Qafarova birinci məsələnin Milli Məclisin qərar layihəsi olduğunu deyərək, diqqətə çatdırdı ki, Azərbaycan Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq Milli Məclis Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Mərkəzi Bankın İdarə Heyətinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir. Ölkə Prezidenti Mərkəzi Bankın İdarə Heyətinin üzvlərinin vəzifəyə təyin olunması üçün namizədlər təqdim edib və parlament bu barədə qərar qəbul etməlidir.

Məsələ barədə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Komitə sədri təqdim olunan namizədlər Rəşad Temraz oğlu Orucovun və Əliyar Qəhrəman oğlu Məmmədyarovun fəaliyyəti, iş təcrübəsi haqqında məlumat verdi və məsələyə dair komitədə müsbət rəy verildiyini dedi.

Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq təsdiq olundu.

Sonra iclasda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə (birinci oxunuş) baxıldı.

Məsələni təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi və "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat" "Büdcə sistemi haqqında" qanunla müəyyən edilmiş müddətdə və formada Milli Məclisə təqdim edilib. Həm layihə, həm hesabat tələb olunan məlumatları əhatə edərək qanunla müəyyən edilmiş qaydada tərtib olunub.

Qeyd edildi ki, 2021-ci ilin dövlət büdcəsi Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik çağırışları ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin, COVID-19 pandemiyasının və Vətən müharibəsindən sonra quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə təsirləri nəzərə alınmaqla icra olunub.

Komitə sədri dedi ki, 2021-ci il bütövlükdə ölkəmizin sosial-iqtisadi inkişafı baxımından uğurlu bir il olub. Belə ki, ölkə ərazisində koronavirus pandemiyasına qarşı vaksinasiyanın həyata keçirilməsi və pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən yumşaldılması və aradan qaldırılması, eləcə də neftin dünya bazarlarında qiymətinin artması fonunda yaranan əlverişli xarici və daxili makroiqtisadi mühit iqtisadiyyatın gözləniləndən daha tez bərpa olunaraq 2019-cu ildəki ümumi daxili məhsulun səviyyəsini keçməsini şərtləndirib. Ötən il iqtisadiyyatın bütün sahələrində bərpa prosesləri sürətlə gedib, neft sektoru üzrə əlavə dəyər 1,8, qeyri-neft sektorunda isə 7,2 faiz artıb. ÜDM-in həcmi 75,8 milyard manat proqnozlaşdırılsa da, faktiki həcmi 92,9 milyard manat təşkil edib. Xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə 685,8 milyon dollar azalaraq ilin sonunda 8,135 milyon dollar olmaqla ÜDM-in 14,9 faizini təşkil edib. Hesabat ilində sürətli bərpa və artım dinamikası formalaşsa da, dünya iqtisadiyyatında cərəyan edən inflyasiya problemi Azərbaycana öz təsirini göstərib. Lakin ölkədə antiinflyasiya tədbirlərinin gücləndirilməsi istiqamətində görülən işlər daha yüksək inflyasiya göstəricilərindən yayınmağa imkan verib. Ümumilikdə 2021-ci il ərzində həm daxili, həm beynəlxalq vəziyyət ölkəmiz üçün əlverişli olub.

Tahir Mirkişili 2021-ci ilin dövlət büdcəsinin icrasının əsas parametrlərindən danışaraq bildirdi ki, hesabat ilində dövlət büdcəsinin gəlirləri 25427 milyon manat proqnoza qarşı 26396,3 milyon manat təşkil edib. Gəlirlər proqnozla müqayisədə 969,3 milyon manat və ya 3,8 faiz çox icra olunub. Dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 10,4 faiz çox olub. Qeyri-neft sektoru üzrə dövlət büdcəsinə daxilolmalar 49,3 faiz vergi orqanları, 33,8 faiz gömrük orqanları, 16,9 faiz isə digər mənbələr vasitəsilə formalaşıb. Bu müddətdə dövlət büdcəsinin neft sektoru üzrə daxilolmaları 13536,2 milyon manat təşkil edib. Dövlət Vergi Xidmətinin xəttilə büdcəyə daxilolmalar 8529,200 min manat, Dövlət Gömrük Komitəsinin xətti ilə isə 4343,0 milyon manat təşkil edib. Özəlləşdirilmədən daxilolmalar 112,7 milyon manat olmaqla, əvvəlki ilə nisbətən 83,4 faiz artıb. Dövlət maliyyə nəzarəti və hüquq-mühafizə orqanları tərəfindən aparılmış yoxlamalar nəticəsində 60.8 milyon manat dövlət büdcəsinə bərpa olunub.

Qeyd edilib ki, 2021-ci il dövlət büdcəsinin xərcləri 27 422,4 milyon manat, yəni 96,1 faiz icra olunub. Xərclərin 60,5 faizini cari xərclər, 31,5 faizini əsaslı xərclər, 8 faizini isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil edib. Sosialyönümlü xərclər ümumi xərclərin 37,5 faizini və ya 10296,7 milyon manat təşkil edib. Ölkədə koronavirus pandemiyası ilə mübarizə tədbirləri üçün dövlət büdcəsində 261 milyon manat vəsait nəzərdə tutulsa da, zərurətdən irəli gələrək faktiki olaraq ümumi 806,8 milyon manat vəsait xərclənib. Dövlət büdcəsindən təhsil üçün ayrılmış xərclərin 96,7 faizinin, müdafiə və təhlükəsizlik üçün ayrılmış xərclərin 99,2 faizinin, meliorasiya tədbirləri üçün ayrılmış xərclərin 98,7 faizinin, ərzaq təhlükəsizliyi üçün ayrılmış xərclərin 97,3 faizinin, elm üçün ayrılmış xərclərin isə 84,6 faizinin icrası təmin edilib. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri üçün büdcədə nəzərdə tutulmuş 2200,0 milyon manat vəsaitin 2178,4 milyon manatının və ya 99 faizinin icrası təmin olunub.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2021-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsinə və illik hesabata dair Hesablama Palatasının rəyini təqdim etdi. Palatanın rəyi 2021-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi və illik hesabatın hüquqi aktların meyarlarına uyğunluğunu, büdcə parametrlərinin əsaslığı və tamlığı ilə bağlı qiymətləndirmələri özündə əks etdirir. Qanun layihəsi və illik hesabat hüquqi aktlarla müəyyən edilmiş müddətdə təqdim olunub, tələb olunan məlumat və göstəriciləri özündə ehtiva edir. Hesabata daxil edilən məlumatların keyfiyyətinin və həcminin yüksəlməsi istiqamətində də müəyyən addımlar atılıb.

Bildirildi ki, büdcə qaydasının təkmilləşdirilməsi sahəsində görülmüş işlər barədə məlumatların təqdim edilməsi, son illər ərzində ilk dəfə olaraq illik hesabatda Hesablama Palatasının rəylərində verilmiş təkliflər barədə alt-bölmənin verilməsi təqdirəlayiqdir. Sənədlərdə dövlət büdcəsinin parametrlərinin sosial-iqtisadi proqnozlara əsaslandığı, bu proqnozların qlobal iqtisadi çağırışların təsiri ilə dəyişə və dövlət büdcəsinin bu təsirlərə məruz qala biləcəyi qeyd edildi.

Diqqətə çatdırıldı ki, təqdim edilmiş məlumatların təhlili gəlirlər və xərclər üzrə müəyyən edilmiş hədəflərə əsasən nail olunduğunu göstərir. Bununla yanaşı, rəy icra edilmiş dövlət büdcəsinin dövlət borcu, büdcə kəsirinin göstəricilərinin əsaslılığı və tamlığını, bu göstəricilərin əsas makroparametrlərə uyğunluğunu özündə əks etdirir. Sənədə ötən ilin debitor borclarının, dövlət satınalmalarının bəzi parametrlərinin səmərəliliyinin qiymətləndirilməsi, müvafiq dövrdə başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri daxil edilib. Bununla yanaşı, dövlət proqramları və tədbirləri, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi ilə bağlı ayrılmış dövlət vəsaitlərinin istifadəsinə dair məsələlər diqqətdə saxlanılıb.

Bu məsələ ətrafında gedən müzakirələrdə komitə sədrləri Əhliman Əmiraslanov, Tahir Rzayev, deputatlardan Hikmət Məmmədov, Elnur Allahverdiyev, Elşən Musayev, Azər Badamov, Fazil Mustafa, Elşad Mirbəşir oğlu, Elman Nəsirov, Razi Nurullayev fikirlərini bildirdilər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni (birinci oxunuş) təqdim etdi. Bildirdi ki, sənəd "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq mövcud qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması məqsədilə hazırlanıb.

Adıçəkilən qanunun 10-cu maddəsinə əsasən, həmin qanunun tələblərinin pozulmasına görə şəxslər İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif edilən hazırki dəyişikliklər bu məsuliyyətin qanunvericilik əsaslarının və növlərinin müəyyən edilməsi məqsədilə hazırlanıb.

İnzibati Prosessual Məcəlləyə təklif edilən dəyişikliklər isə Mərkəzi Seçki Komissiyasının qərarlarının mübahisələndirilməsi zamanı iddia üzrə icraatın xüsusiyyətləri, bu kateqoriyadan olan inzibati mübahisələrə dair işlər üzrə icraat zamanı məhkəmə aidiyyatının müəyyən edilməsi, iddia ərizəsinə baxılması müddəti və digər məsələləri tənzimləyir.

"Vətəndaşların müraciətləri haqqında" qanuna da uyğunlaşdırma xarakterli müvafiq düzəliş təklif olunur.

Komitə sədrləri Siyavuş Novruzov, Ziyafət Əsgərov sənədlə bağlı fikirlərini bildirdilər. Komitə sədri Əli Hüseynli qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bundan sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyin növbəti 4 məsələsi ölkə Prezidenti tərəfindən bir məktubla parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxın qanun layihələridir. Qeyd etdi ki, dəyişikliklər "Milli arxiv fondu haqqında" qanuna dəyişiklik edilməsi barədə qanunla bağlıdır. Digər qanunlarda edilən dəyişikliklər də həmin qanundan irəli gəlir.

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihəni (birinci oxunuş) təqdim edərək dedi ki, arxiv işi sahəsində fəaliyyətin yeni dövrün tələblərinə uyğun qurulması və bu istiqamətdə dövlət nəzarətini gücləndirmək məqsədilə Azərbaycan Prezidentinin 2020-ci il 12 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət proqramı" qəbul edilib. Həmin proqramla arxiv işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması nəzərdə tutulub.

Dövlət başçısı tərəfindən Milli Məclisə təqdim edilən "Milli arxiv fondu haqqında" qanuna dəyişiklik edilməsi barədə sənəddə Milli arxiv fondunun qeydiyyat sisteminin təkmilləşdirilməsi, dövlət arxiv xidməti sisteminin yeni strukturunun müəyyən edilməsi, habelə arxiv məlumatlarının əldə edilməsi sahəsində müvafiq icra hakimiyyəti orqanının iştirakı, arxivlərin maddi-texniki təminatı, habelə arxiv əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi ehtiva edilib. Dəyişikliklərdə Milli arxiv fondu sənədlərinin komplektləşdirilməsi, mühafizəsi, arxiv sənədlərinin elmi-tarixi və sosial məqsədlər üçün daha əlverişli istifadəsi, informasiya və kommunikasiya texnologiyalarını tətbiq etməklə arxiv işinin modernləşdirilməsi, arxiv sənədlərinin rəqəmsallaşdırılması və vahid elektron məlumat sisteminin yaradılması təklif olunur.

Komitə sədri qanun layihəsində ümumilikdə 13 maddə üzrə 42 dəyişikliyin nəzərdə tutulduğunu bildirdi və maddələr üzrə aparılan dəyişiklikləri diqqətə çatdırdı.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bildirdi ki, "Milli arxiv fondu haqqında" qanunda ediləcək dəyişikliklərlə bağlı bir sıra qanunvericilik aktlarına da düzəlişlərin edilməsi nəzərdə tutulub. Sonra o, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında (birinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim etdi. Qeyd olundu ki, Mülki Məcəlləyə edilən əlavəyə əsasən, ləğvetmə komissiyası özünün və ləğv edilən hüquqi şəxsin fəaliyyəti nəticəsində yaranmış və "Milli arxiv fondu haqqında" qanuna uyğun olaraq arxiv sənədinə aid edilmiş sənədlərin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verilməsini təmin edir.

İnzibati Xətalar Məcəlləsinin 391-ci maddəsinin adı və dispozisiyası yeni redaksiyada verilir. "Milli arxiv fondu sahəsində qanunvericiliyin pozulması" kimi təsbit olunmuş maddəyə əsasən, arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi və bu tərkibdən çıxarılması və ya məhv edilməsi qaydalarının, Milli arxiv fondunun mühafizəsi qaydalarının, habelə arxiv fondu sənədlərinin daimi mühafizə məqsədilə dövlət arxivlərinə təhvil verilməsinin "Milli arxiv fondu haqqında" qanunla müəyyən edilmiş müddətlərinin, arxiv fondu sənədlərinin tərkibi və həcmi barədə məlumatların təqdim olunması formasının və müddətinin, Milli arxiv fondu sənədlərindən istifadə qaydasının pozulmasına görə xəbərdarlıq edilir və ya fiziki, vəzifəli və hüquqi şəxslər üçün müvafiq cərimələr nəzərdə tutulur.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunla bağlı isə nəzərə çatdırıldı ki, qanunun 16-cı maddəsinə ləğvetmə komissiyasının hüquqi şəxsin dövlət reyestrindən çıxarılması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi sənədlər sırasına fəaliyyəti nəticəsində yaranmış arxiv fondu sənədlərinin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatı tərəfindən verilmiş arayış əlavə olunur.

Komitə sədri Tahir Rzayev, deputatlar İsa Həbibbəyli, Sahib Alıyev, Əziz Ələkbərov dəyişikliklər barədə bəzi qeyd və təkliflərini diqqətə çatdırdılar. Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov səslərdirilən məsələlərə münasibət bildirdi. Müzakirələrin yekununda təqdim olunan qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olundu.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova yaz sessiyasının yekunları barədə qısa məlumat verdi.

Spiker bildirdi ki, Milli Məclisin yaz sessiyasında 13 iclas keçirilib, 70 qanun və qərar, o cümlədən bir Konstitusiya qanunu qəbul edilib. Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazası daha da möhkəmləndirilib və təkmilləşdirilib.

Milli Məclis yaz sessiyasının iclaslarında Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun hesabatını, məruzə və məlumatlarını dinləyib.

Sahibə Qafarova qeyd edib ki, parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də önəmli tədbirlər görülüb.

Milli Məclisin deputatları 28 ölkəyə 50-dən çox səfər həyata keçiriblər. Bu səfərlərdə 95 deputat iştirak edib. Deputatlar üzv olduğumuz beynəlxalq təşkilatların həm əyani, həm də videokonfrans formatında keçirilən toplantılarında iştirak və çıxış ediblər. Deputatlar Belarusda keçirilən referendumu müşahidə ediblər.

Milli Məclis Sədrinin 6 ölkəyə rəsmi və bir ölkəyə işgüzar səfəri olub. Bu səfərlərdə 30-a yaxın deputat iştirak edib. Spiker onu da diqqətə çatdırdı ki, Milli Məclisdə o, 15 ölkənin prezident və baş naziri, parlament sədrləri və sədr müavinləri, deputatları, bir neçə ölkənin müxtəlif icra orqanlarının rəhbərləri, 4 beynəlxalq təşkilatın nümayəndə heyətləri ilə görüşlər keçirib. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilib.

Spiker xatırlatdı ki, bu səfərlər və görüşlər barəsində o, hər dəfə Milli Məclisin iclaslarında deputatlara vaxtaşırı məlumat verib.

Milli Məclisin Sədri onu da qeyd etdi ki, 2 ölkənin qanunvericilik orqanları ilə Milli Məclis arasında əməkdaşlıq sazişləri imzalanıb. Bu yaxınlarda Milli Məclis böyük bir beynəlxalq tədbirə - İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransına evsahibliyi edib. Bu tədbirdə 100-dən çox şəxs iştirak edib.

Spiker Milli Məclisin yaz sessiyasının uğurla başa çatdığını dedi və deputatlara səmərəli iş üçün təşəkkür etdi.

Milli Məclisin Sədri yaz sessiyasını bağlı elan etdi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Rəşad Temraz oğlu Orucov və Əliyar Qəhrəman oğlu Məmmədyarov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri vəzifəsinə təyin edilsinlər.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 31 may 2022-ci il*

## XİN: Ermənistanın Azərbaycan tərəfinin atəşkəs rejimini pozması ilə bağlı əsassız iddialarını rədd edirik

"Ermənistan Xarici İşlər Nazirliyinin guya Azərbaycan tərəfinin atəşkəs rejimini pozması ilə bağlı, habelə Azərbaycana qarşı tamamilə əsassız iddiaları əks etdirən açıqlamasını qətiyyətlə rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in 2022-ci il 28 may tarixli açıqlamasına dair şərhində deyilir. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi guya ki, Azərbaycan Silahlı Qüvvələri tərəfindən atəşkəsin pozulması ilə bağlı dezinformasiya xarakterli, iftira dolu açıqlamanı təkzib edib və yayılan məlumatın həqiqətə uyğun olmadığını bəyan edib.

Hazırda iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində səylər göstərildiyi bir vaxtda Ermənistan tərəfinin bu cür iftira dolu, pozucu açıqlamalarla çıxış etməsi normallaşma istiqamətində atılan addımlara, o cümlədən dövlət sərhədinin delimitasiyası prosesinə xələl gətirmək məqsədi güdür. Ermənistan XİN tərəfindən son günlərdə nümayiş etdirilən dağıdıcı yanaşma, birmənalı şəkildə Ermənistan və Azərbaycan arasında normallaşma üzrə baş tutan Brüssel görüşlərinin nəticələrini heçə endirməyə hədəflənib.

Azərbaycan öz tərəfindən postmünaqişə mərhələsində beynəlxalq ictimaiyyətin də dəstəklədiyi sülh və quruculuq səylərini davam etdirəcək və bu prosesə qarşı yönələn hər hansı addımların qarşısını qətiyyətlə alacaqdır", - deyə Azərbaycan XİN-in şərhində qeyd olunub.

# Diplomatik korpusun nümayəndələri Kəlbəcərdə erməni vəhşiliyinin şahidi olublar



Mayın 31-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən xarici ölkələrin səfirlərinin, hərbi attaşelərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərlərinin, ümumilikdə 50-dən artıq ölkədən 80-dən çox şəxsin azad olunmuş Kəlbəcər rayonuna səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi diplomatları ermənilər tərəfindən Kəlbəcər rayonunda törədilmiş dağıntıları, vəhşilikləri, xüsusilə onların həmin ərazilərdən çıxdığı dövrdə məqsədli şəkildə yaratdıqları problemləri diplomatik korpusun nümayəndələrinin diqqətinə çatdırmaq olub.

Qonaqlara həmçinin ermənilərin dini abidələrimizi təhqir etməsi ilə bağlı məlumat verilib. Diplomatik korpusun nümayəndələri eyni zamanda Kəlbəcər rayonunda həyata keçirilən nəqliyyat və enerji infrastrukturu layihələri, o cümlədən yol, tunel tikintisi, enerji xətlərinin çəkilişi və sair barədə məlumatlandırılıb.

Nümayəndə heyəti əvvəlcə Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində inşa edilməkdə olan Murovdağ tuneli ilə tanış olub. Qonaqlara görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolu layihəsinin 16-cı kilometrindən Murovdağ silsiləsi başlayır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsində 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11,6 kilometrlik tunelin tikintisinin məqsədəuyğun hesab edildiyi diqqətə çatdırılıb.

Sonra səfər iştirakçıları "Azərişıq" ASC-nin 110-35-10 kV-luq "Kəlbəcər" yarımstansiyasına gəliblər. Qonaqlara yarımstansiyanın çox qısa müddətdə inşa edildiyi bildirilib, onun artıq fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Həmçinin bölgədəki hərbi hissələrin və infrastruktur layihələri həyata keçirən tikinti şirkətlərinin enerji ilə təmin olunduğu vurğulanıb.

Eyni zamanda səfər iştirakçılarına "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası barədə məlumat verilib. Bildirilib ki, Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası tamamilə yenidən qurulub,












stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənib. Ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası yenidən fəaliyyət göstərir.

Səfər çərçivəsində xarici diplomatlar Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı "Tunel qırğını"nın törədildiyi Kəlbəcər-Laçın tunelində olublar. Burada tədqiqatçı-jurnalist, Tunel və Başlıbel qırğınları mövzularında sənədli televiziya filmlərinin müəllifi Vüsalə Məmmədova, "Tunel qırğını" şahidi Ramil Hüseynov, Başlıbel faciəsinin şahidi Habil Ələsgərov diplomatik korpusun nümayəndələri qarşısında qısa təqdimat ediblər. Qonaqlara törədilmiş qətliamlar barədə məlumat verilib, Kəlbəcər-Laçın tunelindəki qırğının Kəlbəcərin 36 kəndini birləşdirən yeganə avtomobil yolunu ələ keçirmək, Kəlbəcəri mühasirədə saxlamaq məqsədilə törədildiyi bildirilib. Qadın, yaşlı, uşaq da daxil olmaqla, ümumilikdə 53 nəfərin qətlə yetirildiyi, 64 nəfərin əsir götürüldüyü vurğulanıb.

Eyni zamanda 1993-cü il aprelin 18-də Kəlbəcərin Başlıbel kəndində Ermənistan hərbçiləri silahsız mülki şəxslərin doğma kəndlərində qayalara sığındığı yerləri taparaq, onların gizləndiyi mağaraları atəşə tutublar. Nəticədə silahsız, hər hansı müqavimət göstərmək imkanına malik olmayan 12 nəfər (1-i 12 yaşlı uşaq, 1-i 16 yaşlı yeniyetmə, o cümlədən 6 qadın və 6 kişi olmaqla) sığındıqları yerdə öldürülüb. Qeyd edilib ki, cinayətkar qruplaşmanın üzvlərinin əlindən digər mağaralara qaçaraq gizlənən və onlardan canını qurtarmağa çalışan 36 şəxsdən 7 nəfəri mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişdiyi istintaq materialları ilə müəyyən olunub.

Daha sonra qonaqlar Kəlbəcər şəhərinə gəlib, erməni vəhşiliyi nəticəsində yerləyeksan edilən infrastrukturla tanış olublar. Burada məscid, bayraq meydanı, tarixi-diyarşünaslıq muzeyi, qədim daş heykəllər və şahmat məktəbinin binasının dağıntılarının şahidi olan nümayəndə heyətinə şəhərin tarixi, dağıdılmış binalar barədə məlumat verilib, erməni işğalından əvvəl burada çəkilmiş şəkillər göstərilib.

Qonaqlara həmçinin şəhərdə Kəlbəcər balı təqdim olunub. Nümayəndə heyəti Kəlbəcərdə aşıq musiqisini dinləyib.

Sonda səfər iştirakçıları "İstisu" sanatoriyasına gəliblər. Nümayəndə heyətinə erməni vandalları tərəfindən ərazilərimiz işğal olunandan sonra oradakı təbii sərvətlərin də istismar edildiyi bildirilib. Vurğulanıb ki, İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb.

Bununla da Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Kəlbəcər səfəri başa çatıb.

# Azərbaycanla Bolqarıstan arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb

Bolqarıstana rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 31-də Bolqarıstan Prezidenti Rumen Radev ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Prezident Rumen Radev iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində həyata keçirilən bu səfərin əlaqələrin daha da inkişafı baxımından əhəmiyyətini qeyd edib. O, dost Azərbaycan ilə əlaqələrin üç onillik ərzində bir çox sahələrdə yüksək səviyyədə inkişaf etdiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dəvət ünvanladığını qeyd edən Bolqarıstan Prezidenti bu səfərin həyata keçirilməsinin yalnız iki ölkə arasında deyil, iki bölgə arasında əlaqələrin daha da genişlənməsinə müsbət töhfə verəcəyini ifadə edib.

Nazir Ceyhun Bayramov qəbula görə təşəkkürünü bildirib və Azərbaycanın dövlət başçısının səmimi salamlarını Bolqarıstan Prezidentinə çatdırıb. Nazir Sofiyada keçirilən ikinci strateji dialoq görüşü çərçivəsində bolqar həmkarı ilə çox faydalı fikir mübadiləsinin aparıldığını qeyd edib.

Görüşdə iki ölkə arasında enerji, iqtisadi-ticarət, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanın enerji sahəsində Bolqarıstanın, eləcə də Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov Bolqarıstan Prezidentinə bölgədəki postmünaqişə vəziyyəti barədə, o cümlədən azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, həmçinin sülh quruculuğu istiqamətində Azərbaycan hökuməti tərəfindən görülən işlər barədə məlumat verib. Bolqarıstan tərəfinin azad olunmuş ərazilərin minalardan təmizlənməsi prosesinə dəstək olmaq niyyəti yüksək qiymətləndirilib.

Sonda Ceyhun Bayramov iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin təbrik məktubunu Bolqarıstan Prezidentinə təqdim edib.

# Ceyhun Bayramov Bolqarıstanın Milli Assambleyasının Sədri ilə görüşüb

Mayın 31-də Bolqarıstana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Bolqarıstan Respublikasının Milli Assambleyasının Sədri Nikola Minçev ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Nikola Minçev Azərbaycan xarici işlər nazirini salamlayıb və bu səfərin iki ölkə arasında əlaqələrin inkişafına müsbət töhfə verəcəyini qeyd edib.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında baş tutan ikinci strateji dialoq görüşü çərçivəsində faydalı fikir mübadiləsinin aparıldığını bildirib. Nazir parlament ölçüsünün ikitərəfli əlaqələrin vacib istiqamətini təşkil etdiyini qeyd edib. O, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə təbrik məktubunu Nikola Minçevə təqdim edib.

Bolqarıstan Milli Assambleyasının Sədri məktuba görə təşəkkür ifadə edib və qarşılıqlı təbriklərini səsləndirib.

Görüşdə iki ölkə arasında energetika, iqtisadiyyat, humanitar, o cümlədən təhsil və mədəniyyət, habelə turizm sahəsində əməkdaşlıq perspektivlərinin olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov Bolqarıstan Respublikasının Milli Assambleyasında Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı bəyannamənin qəbul olunmasına görə qarşı tərəfə təşəkkürünü bildirib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə münaqişəsonrası bölgədə mövcud olan vəziyyət, azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə ətraflı məlumat verib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# *Teodora GENÇOVSKA:* "Bolqarıstan Azərbaycan ərazilərinin minalardan təmizlənməsi prosesinə töhfə verməyə hazırdır"

Mayın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bolqarıstanlı həmkarı Teodora Gençovskaya ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iki ölkənin xarici işlər nazirləri arasında təkbətək başlanan görüş sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə strateji dialoqla davam edib.

Dialoq görüşündə nazir Teodora Gençovskaya azərbaycanlı həmkarını səmimiyyətlə salamlayıb və iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd olunacağı ərəfədə reallaşan səfərin əhəmiyyətini vurğulayıb. O, son 30 il ərzində ölkələrimiz arasında bir sıra sahələrdə, o cümlədən enerji, nəqliyyat və bağlantı, turizm və digər sahələrdə əməkdaşlığın inkişafını məmnunluqla vurğulayıb.

Nazir Ceyhun Bayramov dəvətə görə həmkarına təşəkkürünü ifadə edib və ölkələrimiz arasında ikinci strateji dialoq görüşünün diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd olunacağı ərəfədə keçirilməsinin rəmzi xarakter daşıdığını qeyd edib. Nazir iki ölkə arasında münasibətlərin beynəlxalq hüquq prinsiplərinə hörmət və qarşılıqlı anlaşma ruhunda inkişaf etdiyini bildirib. O, ölkələrimiz arasındakı yüksəksəviyyəli siyasi dialoqun iqtisadi sahədə də müsbət artım dinamikası ilə müşayiət olunduğunu vurğulayıb.

Nazirlər ölkələrimiz arasında iqtisadi əlaqələrin özəyini təşkil edən enerji sektoru, habelə nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, turizm, humanitar və digər sahələrdə əlaqələrin inkişafı perspektivlərini müzakirə ediblər. Cari il ərzində keçirilməsi planlaşdırılan Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın növbəti iclasının ikitərəfli əməkdaşlığın genişləndirilməsinə müsbət töhfə verəcəyindən əminlik ifadə edilib.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə mərhələsində bölgədə mövcud olan vəziyyət, Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən işğalının ağır nəticələrinin aradan qaldırılması üçün görülən işlər, o cümlədən azad olunan ərazilərdə minaların təmizlənməsi, bərpa və quruculuq işləri, habelə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar və bölgədə sülh və tərəqqinin təmin edilməsi ilə bağlı Azərbaycanın mövqeyi barədə məlumatlandırıb.

Nazir Teodora Gençovska Bolqarıstanın Azərbaycan hökumətinin həyata keçirdiyi minalardan təmizləmə prosesinə töhfə verməyə hazır olduğunu ifadə edib.

Tərəflər ikitərəfli müstəvi ilə yanaşı, qlobal və regional beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdən sonra nazirlər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olub və mətbuata bəyanatlarla çıxış ediblər.

# *Azərbaycan XİN:* Ermənistan tərəfi anlamalıdır ki, onilliklər öncəki davranışı həyata keçirmək cəhdləri xülyadan başqa bir şey deyil

"Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan dövlətinin başçısının mayın 27-də Zəngilan rayonunda səsləndirdiyi fikirlə bağlı növbəti əsassız açıqlama ilə çıxış etməsi təəssüf doğurur. İlk növbədə qeyd etmək istərdik ki, 30 ilə yaxın beynəlxalq hüququn fundamental prinsiplərini tapdalayan, işğalçı siyasət yürüdən, bir milyona yaxın azərbaycanlının insan hüquqlarını kobudcasına pozan Ermənistanın son zamanlar sözdə beynəlxalq hüquqa tez-tez istinadlar etməsi maraq doğurur. Ermənistandan fərqli olaraq, Azərbaycan hər zaman beynəlxalq hüquq prinsiplərinə hörmətlə yanaşıb və bu mövqeyi ardıcıl şəkildə nümayiş etdirib".

Bu sözlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanın dövlət başçısının Zəngilan rayonunda çıxışı ilə bağlı açıqlamasına dair şərhində yer alıb.

"Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş Zəngilan rayonunda səsləndirdiyi fikirlərə gəldikdə isə, Ermənistan Xarici İşlər Nazirliyinin diqqətinə çatdırırıq ki, Azərbaycanın dövlət başçısı məhz beynəlxalq hüquq prinsiplərinə uyğun olmayan davranışdan çəkinməyə çağırır və belə bir hüquqazidd davranışın doğura biləcəyi təhlükələrlə bağlı xəbərdarlıq edir. Təəssüf ki, postmünaqişə mərhələsində Ermənistanda bu cür təhlükəli davranışları təşviq edən revanşist qüvvələr mövcuddur və bu qüvvələrin 30 ilə yaxın yürütdüyü təcavüzkar siyasətin Ermənistanı sürüklədiyi acınacaqlı vəziyyət göz qabağındadır. Ermənistan tərəfi anlamalıdır ki, onilliklər öncəki davranışı həyata keçirmək cəhdləri xülyadan başqa bir şey deyil. Yalnız bölgədə yaranmış yeni reallıqların və yeni imkanların düzgün şəkildə dəyərləndirilməsi doğru nəticələrə gətirib çıxara bilər", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin şərhində qeyd olunub.

# “Mavi səmada qardaşlıq festivalı”

## Bakıda keçirilən “TEKNOFEST” Türkiyə mediasının əsas gündəm mövzusu oldu

**Cənubi Qafqazın lider dövləti olan Azərbaycan qonşu dövlətlərlə milli maraqlar əsasında qarşılıqlı əməkdaşlığını genişləndirməkdə, onlarla əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməkdədir. Qeyd edilən məqamlar özünü xüsusən eyni tarixi kökə, mədəniyyətə malik olan Azərbaycan-Türkiyə münasibətlərində daha aydın büruzə verir.**


























































Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərindən irəli gələrək bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış ediblər. Dünya siyasi düzəninin indiki şəraitində isə hər iki ölkənin bölgədə, ümumiyyətlə, beynəlxalq aləmdə gedən proseslərə vahid prizmadan yanaşmaları, xüsusən ərazi bütövlüyü kimi həssas məsələlərdə bir-birlərinin maraqlarını müdafiə etmələri daha mühüm əhəmiyyət kəsb edir.

Türkiyə ilə Azərbaycanın dostluğunun sarsılmazlığı bu günlərdə cərəyan edən proseslər fonunda bir daha öz təsdiqini tapdı. Bunun mayın 26-29-da paytaxtımızda Aviasiya, Kosmos və Texnologiya Festivalı - “TEKNOFEST” keçirilən zaman yenidən şahidi olduq.

İki qardaş Prezident - İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi festivala türk mediası da xüsusi diqqət ayırıb. İki ölkənin liderlərinin Bakı görüşü Türkiyədə bir neçə yüzminlik tirajı olan qəzetlərin manşet mövzusu olub. Aparıcı televiziya şirkətləri, internet portalları da bu mövzu ətrafında geniş materiallar təqdim ediblər.

“Axşam” qəzeti “Mavi səmada qardaşlıq festivalı” adlı xəbəri manşetdən verib. Qeyd edilib ki, dünya daha bir möhtəşəm tədbirə şahidlik etdi. Azərbaycanın paytaxtında “TEKNOFEST”in keçirilməsində əsas məqsəd aviasiya, kosmik sənaye və rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın festivalla bağlı fikirlərinin yer aldığı xəbərdə bildirilir ki, qardaş ölkənin müstəqillik günündə keçirilən bu bayram Azərbaycan-Türkiyə birliyinin sarsılmaz, əbədi olduğunu göstərir.

İlham Əliyevin “Keçən il iyunun 15-də - Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzaladıq, Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində” fikirlərinin də yer aldığı məqalədə məhz bu festivalın keçirilməsinin Azərbaycan seçilməsi xalqlarımız arasında dostluğun, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin yeni və daha yüksək mərhələyə adlamasını təsdiqləyir.

“Hürriyət” qəzetinin “Bakıda Teknofest fırtınası” başlıqlı məqaləsində bildirilib ki, Azərbaycan və Türkiyə prezidentləri festivalda çıxış edərək verdikləri mesajla iki ölkə arasında qardaşlığın sarsılmaz və əbədi olduğunu növbəti dəfə sübut etdilər. R.Ərdoğanın “Bəli, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq. Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır” fikirlərinin yer aldığı xəbərdə bildirilib ki, xüsusilə beynəlxalq münasibətlər müstəvisində iki dövlətin bir-birini ardıcıl və davamlı dəstəkləməsi olduqca təqdirəlayiqdir.

“Milliyət” qəzeti “Heç kimin torpağında gözümüz yoxdur” başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verərək vurğulayır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir. Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi əlaqələr və digər sahələrdəki əməkdaşlıq hazırda elə bir yüksək mərhələdədir ki, bunları həmin ölkələrin cəmiyyətlərinə anlatmağa, eləcə də dünyaya izah etməyə heç bir ehtiyac duyulmur. Bunun növbəti dəfə Bakıda keçirilən festivalda şahidi olduq. R.Ərdoğanın “Əziz Qardaşım, Müzəffər Ali Baş Komandan cənab Əliyevin qətiyyətli mövqeyi sayəsində Qarabağ otuz il sonra əsarətdən qurtulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin igid mənsubları Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir zəfərə imza atmışlar. Bu məqam çox həssasdır, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərmişdir” fikirlərinə yer ayıran nəşrdə bildirilib ki, “TEKNOFEST”i ölkə xaricində ilk dəfə Can Azərbaycanda təşkil etməyin həyəcanını və haqlı qürurunu yaşadıq. Bura Azərbaycan gəncliyinin bacarığını, istedadını nümayiş və inkişaf etdirməsi üçün önəmli bir platformadır.

“Sabah” qəzeti “PUA-ları dünyada bilməyən yoxdur” başlıqlı xəbərini manşetə çıxardıb. Bildirilir ki, Azərbaycanla Türkiyə aralarında münasibətlərin nə dərəcədə yüksək səviyyədə qurulduğunu, tərəflərin mühüm əhəmiyyət kəsb edən maraqlar ətrafında hər zaman bir-birini müdafiə etməyə hazır olduğunu həmişə göstərib. Hər iki prezidentin “TEKNOFEST”lə bağlı çıxışlarının yer aldığı məqalədə İlham Əliyevin “İkinci Qarabağ savaşında məşhur “Bayraktar” PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir” fikirləri xüsusi olaraq diqqətə çatdırılıb.

“Takvim” qəzeti “Bir millət, iki dövlət, tək festival” başlıqlı xəbərində “TEKNOFEST” haqqında oxuculara ətraflı məlumat verib. Qeyd edilib ki, festival 2018-ci ildən etibarən hər il təşkil olunur. Azərbaycan bu tədbirə ilk dəfə 3 il sonra - 2021-ci ildə qatılmışdır. Budəfəki sərgidə “Teknofest Azərbaycan” çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, “Smart Qarabağ” Hakatonu, “Take Off” Azərbaycan Startap Sammiti və “Rocket League” videooyunu üzrə Avropa Kiber İdman Kuboku təşkil olunub. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototipləri və STEM layihələri nümayiş etdirilir, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotları sərgilənir.

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın çıxışlarının yer aldığı məqalədə bildirilib ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı, strateji tərəfdaşlığı və bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

“Türkiyə” qəzeti isə “Regionda yeni səhifə açırıq” başlıqlı xəbəri manşetə çıxardıb. Türkiyə və Azərbaycanın dövlət başçılarının çıxışlarına geniş yer ayıran məqalədə yazılıb ki, 44 günlük Vətən müharibəsində qələbədəki qardaşlığın, sədaqətin növbəti sübutu oldu. Prezident İlham Əliyevin “Bu gün daha iki nümunə var - o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik” fikirlərini oxuculara çatdıran nəşr Türkiyə-Azərbaycan münasibətlərinin həm iki ölkə üçün, həm də region üçün çox önəmli rol oynadığını xüsusi olaraq vurğulayıb.

Qəzetlərdən “Yeni Akit”in “Harada bir qardaşımız varsa, ora bizim yurdumuzdur”, “Yeni Birlik”in “Davamlı barışa güclü dəstək”, “Yeni Çağ”ın “Qarabağ Zəfər dastanıdır”, “Yeni Şafak”ın “Kiməsə verəcək tək qarış torpağımız yoxdur”, “Milat”ın “Qardaşlıq nişanı”, televiziya kanallarından “TRT Haber”in “Prezidentlər Əliyev və Ərdoğan “TEXNOFEST”də, “A Haber”in “PUA-nın rolunu dünyada bilməyən yoxdur”, “NTV”nin “Regionda yeni bir səhifə açılmanın zamanı gəlib” və s. kimi başlıqlı xəbərlərlə bildirilib ki, bu səfər növbəti dəfə Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun və strateji müttəfiqliyinin sarsılmaz və əbədi olduğunu sübut etdi. Festivalın yüksək peşəkarlıqla təşkilinə, əhalinin festival çərçivəsində keçirilən tədbirlərə böyük sevinc və qürur hissi ilə qatıldığına diqqət çəkilib.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

---

## “TEKNOFEST Azərbaycan” qardaş Türkiyə ilə həmrəyliyin növbəti nümayişidir

*“Ötən həftə ölkəmizdə möhtəşəmliyi və əlamətdarlığı ilə yaddaqalan “TEKNOFEST Azərbaycan” festivalı keçirildi. Respublikamızın hər yerindən ziyarətçilərin festivala axışması böyük marağın göstəricisi idi. Festivalın peşəkarlar tərəfindən hazırlanması və keçirilməsi isə onun əzəmətini daha da artırırdı”.*

Bu fikirləri qəzetimizə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib. Deputatın fikrincə, festival çərçivəsində qürurverici məqam milli şahinlərimizin və qardaş ölkənin pilotlarının möhtəşəm hava şousu idi ki, onların çətin manevrlərin öhdəsindən ləyaqətlə gəlmələri izləyiciləri heyrətləndirirdi.

S.Möhbalıyev deyir ki, 2018-ci ildən keçirilməyə başlayan “TEKNOFEST” Aerokosmik və Texnologiya Festivalının ildən-ilə nüfuzu artmaqdadır. İndi bu festival beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb: “İlk olaraq Türkiyədən kənarda “TEKNOFEST”in Azərbaycanda təşkil olunması isə iki ölkə arasında olan qardaşlığı, dostluğu, strateji müttəfiqliyi əks etdirməklə yanaşı, həmçinin texnologiya sahəsində əməkdaşlığımızı dərinləşdirəcək”.



Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “TEKNOFEST Azərbaycan”da çıxış etmələri festivalın əhəmiyyətini bir daha artırdı, eləcə də ölkələrimizin birliyini və həmrəyliyini bir daha nümayiş etdirdi. Tarix sübut edir ki, Azərbaycan və Türkiyə hər zaman ortaq mövqedən çıxış edib, şad gündə də, dar gündə də bir yerdə olublar. 1918-ci ildə Bakının bolşevik işğalından azad edilməsi zamanı türkiyəli qardaşlarımız köməyimizə yetişdi, şəhərimizi birlikdə azad etdilər, bu yolda şəhidlər verdilər. Bu, qardaşlıq üçün ən gözəl nümunə və örnəkdir. Tarixi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində Türkiyə yenə də Azərbaycanın yanında oldu, xalqımıza mənəvi-siyasi dəstəyini əsirgəmədi.

Səttar Möhbalıyev deyir ki, Azərbaycan və Türkiyə münasibətlərinin bu səviyyəyə çatmasında hər iki ölkənin prezidentlərinin xidmətləri danılmazdır. Dövlət başçılarının birliyi və həmrəyliyi, bir-birinə “qardaşım” deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir. İmzalanan Şuşa Bəyannaməsi isə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edir, müttəfiqliyin geostrateji əhəmiyyətini yüksəldir: “İnanırıq ki, bundan sonra da əlaqələrimiz bütün sahələrdə dinamik olaraq inkişaf edəcək, həmrəyliyimiz əbədi olacaq. Babalarımızın bizə miras qoyduğu bu birlik gələcək nəsillərimiz tərəfindən də davam etdiriləcək”, - deyə deputat vurğulayıb.

***Ülkər XASPOLADOVA, “Azərbaycan”***

Reportaj




Səhər saat 8-dir. Adamlar dəstə-dəstə şəhərin mərkəzindəki Heydər Əliyev seyrangahına gəlirlər. Əsl istirahət guşəsi olan seyrangahda müxtəlif növ dekorativ ağaclar, gül-çiçəklər, fəvvarələr qəlbə fərəh, gözə dinclik gətirir. Seyrangahın aşağı hissəsində yaradılmış süni göl, suyun içindəki pavilyon isə bura gələnləri öz qoynuna alır.

# Cəlilabad çiyələk rənginə boyandı









Baharın günəşli havasında elə bahar çiçəkləri kimi al-əlvan geyimli uşaqlar, qız-gəlinlər, oturacaqlarda bir-biri ilə şirin söhbət edən yaşlılar bu gözəlliyə əlavə gözəllik qatırlar. Pandemiyaya görə iki il idi ki, onlar belə tədbirlərdən məhrum olmuşdular. Şükür ki, o günlər arxada qaldı. Keçirilən "Çiyələk festivalı" rayonda ilk kütləvi tədbir kimi yaddaşlara hopdu.

Çiyələk bol-bərəkətli Cəlilabad torpağının yetişdirdiyi nemətlərdən biridir. Onun bu rayonda əkilib-becərilməsi Ulu Öndər Heydər Əliyevin 1996-cı ildə həyata keçirdiyi torpaq islahatı ilə bağlıdır. Həmin vaxtdan torpağının sahibi olan kəndli nə əkib-becərdiyini də özü müəyyənləşdirir. O vaxta qədər yalnız öz həyətyanı sahəsində çiyələk yetişdirənlər sonralar onu pay torpaqlarında əkdilər. Bunun üçün onlar xeyli araşdırmalar apardılar, təcrübə topladılar. Ardınca xarici ölkələrdən, xüsusilə qardaş Türkiyədən məhsuldar, keyfiyyətli növlərin şitillərini alıb gətirdilər. Çəkdikləri zəhmət öz bəhrəsini verdi. Yerli şəraitə uyğunlaşan həmin növlər yüksək məhsul götürməyə imkan verdi. Gəlir torpaq mülkiyyətçilərinin gözlədiyindən də yaxşı oldu. Bu, çiyələk əkilən sahələrin ildən-ilə genişləndirilməsinə şərait yaratdı.

Bir müddətdən sonra isə daha bir texnologiya tətbiq edildi: polietilen örtüklər altında becərilən bitkilər faraş çiyələyin yetişməsinə zəmin yaratdı. Bu da öz növbəsində daha yüksək gəlir demək idi. Zaman keçdikcə rayona yeni texnika və texnologiyalar gətirildi. İndi imkanlı fermerlər məhsulu lazımi temperaturda saxlamaq, xarab olmasının qarşısını almaq üçün soyuducu anbarlar da tikmişlər. Yetişdirilən "Murano", "Monterey", "Angelica", "Clery" və digər çiyələk növləri daxili bazarlarla yanaşı, xaricə, xüsusən Rusiya Federasiyasına göndərilir.

Hazırda rayonda 800 fermer 607 hektar sahədə çiyələk yetişdirir. May ayının sonunadək həmin sahələrdən 1200 tondan çox məhsul toplanmışdır. Bunun da 900 tonu xarici bazarlara göndərilmişdir. İndi isə qayıdaq "Çiyələk festivalı"na.

Festivalda 30 nəfərdən çox fermer öz məhsulunu nümayiş etdirir. Rayonun ayrı-ayrı qəsəbə və kəndlərindən, habelə Bakıdan, digər rayonlardan gələnlər ətrafa yayılan musiqi sədaları altında seyrangahda yaradılan guşələrə baş çəkərək yetişdirilən təzə-tər çiyələyə baxmaqla yanaşı, ondan hazırlanan kompot, mürəbbə və müxtəlif növ məmulatlarla da ətraflı tanış olurlar. Fermerlər, onların nümayəndələri festivala gələnlərə çiyələk haqqında ətraflı məlumatlar verirlər.

Göytəpə şəhərində yaşayan fermer Murad Həsənov deyir ki, 1995-ci ildən bu işlə məşğuldur. 12 hektarda çiyələk əkib-becərir. Keçən il 250 tondan çox məhsul istehsal edərək daxili və xarici bazarlara yola salıb. Qazancı da yaxşı olub. Bu il isə mayın sonuna kimi kiloqramı 2,5-3 manatdan 75 ton çiyələk satıb.

Fermer Rafiq Rüstəmov isə Privolnoye kəndi ərazisində 2 hektarda çiyələk, 2 hektarda kartof, 0,5 hektarda buğda əkib. Hər gün 600-700 kiloqram çiyələk yığır. Müştərisi də başının üstündədir. Sahədən gəlib "Meyvəli"yə aparırlar.

Məktəblərdə uşaqlara əmək dərslərinin tədris olunması müsbət haldır. Cəlilabad şəhər 7 saylı tam orta məktəbdə bir neçə ildir, daha dəqiq desək, 2019-cu ildən peşə təmayüllü siniflər fəaliyyət göstərir. Təhsil Nazirliyinin planı və proqramı ilə həyata keçirilən bu layihəyə əsasən, şagirdlərə aqronomluq, aşpazlıq, dülgərlik və gərzilik peşələri öyrədilir. Məktəblilər 40 kvadratmetr sahədə yetişdirdikləri çiyələyi festivala gətirmişlər. Maraqlısı odur ki, aqronomluq peşəsinə həvəs göstərən şagirdlərin yetişdirdikləri çiyələkdən aşpaz qrupunun uşaqları müxtəlif növ məmulatlar - kompot, cem, mürəbbə hazırlamış, dülgərliyi öyrənənlər məhsulu nümayiş etdirmək üçün xüsusi stendlər, dərziliklə məşğul olan qızlar isə mürəbbə və kompot qabları üçün bəzəkli parçalardan örtüklər hazırlamışlar. Yəni məktəbin bütün şagirdləri əmək dərsində seçdikləri peşə çərçivəsində festivalda iştirak edirlər.

Məktəbli rəssamlar, qiraət ustaları isə seyrangahın müxtəlif guşələrində qrup halında çiyələk şəkli çəkir, onun haqqında yazılmış şeirləri söyləyirlər. Seyrangahın girəcəyində quraşdırılmış səhnədə rayon musiqiçilərinin, habelə Bakıdan gələn müğənnilərin ifa etdikləri təranələr hər kəsə könül xoşluğu gətirir.

Saat 11-dir. Cəlilabad RİH-in təşkilatçılığı ilə Azəri ev aşpazı komandası, turizmin və milli mətbəxin inkişafına dəstək verən QHT-lərlə birlikdə hazırlanmış "Çiyələk festivalı"nın açılışı elan olunur. Sonra festival iştirakçıları Ulu Öndər Heydər Əliyevin heykəli önünə təzə-tər gül-çiçək dəstələri qoyaraq xatirəsini yad edirlər. Rrayonun rəhbər işçiləri, Bakıdan, respublikanın digər rayonlarından və xarici ölkələrdən olan qonaqlar tədbir iştirakçıları sırasına qoşulurlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***




# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu davam edir. Növbəti qəbul mayın 31-də Xaçmaz şəhərində keçirilib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Xaçmaz və Şabran rayonlarından olan vətəndaşları qəbul edib. Komitədən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstəsi qoyularaq xatirəsi ehtiramla yad edilib.

Komitə sədri Anar Quliyev Heydər Əliyev Mərkəzində Ulu Öndərin ömür yolunu və fəaliyyətini əks etdirən ekspozisiya ilə tanış olub. Sonra mərkəzdə keçirilən qəbul zamanı vətəndaşların müraciətləri dinlənilərək izahatlar verilib. Komitənin fəaliyyət istiqamətlərinə aid olan müvafiq müraciətlərdən bəziləri yerində həllini tapıb, digərlərinin isə araşdırılaraq həll edilməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

* * *

Mayın 31-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.

Qurumun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbulda əvvəlcədən növbəlilik əsasında qəbula yazılan vətəndaşların müraciətləri dinlənilib, qaldırılan suallar cavablandırılıb.

Qəbulda həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun artırılması üçün genişmiqyaslı tədbirlərin həyata keçirildiyi vurğulanıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi qeyd olunub.

Qəbulda olan şəxslərə ərazilərin minalardan təmizlənməsi, rabitə-kommunikasiya xətlərinin bərpa edilməsi, müasir infrastrukturun yaradılması ilə bağlı geniş məlumat verilib. Bir-neçə gün əvvəl Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonundakı "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdiyi, yaxın günlərdə kənd sakinlərinin doğma yurdlarına köçürülməsinə başlanılacağı xəbəri də verilən məlumatlarda yer alıb.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad edilmiş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Komitə sədrinin qəbulunda əksəriyyəti məcburi köçkün olan vətəndaşların müraciətləri dinlənilib və qaldırılan məsələlərin həlli üçün onlar müvafiq qaydada qeydə alınıb. Qəbulda olanlar qaldırılan məsələlərin araşdırılacağı və qanunvericiliyə uyğun şəkildə həllini tapacağı ilə bağlı məlumatlandırılıb.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin sədri Saleh Məmmədov Zaqatala rayonunda vətəndaşları qəbul edib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl AAYDA-nin İdarə Heyətinin sədri Saleh Məmmədov və Zaqatala rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra Zaqatala rayonunda agentliyin tabeliyində olan "14 N-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda Zaqatala və Balakən rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

# Bu gün Bakı Enerji Həftəsi işə başlayır

Bu gün paytaxtımızda Bakı Enerji Həftəsi (1-4 iyun) adlı tədbir öz işinə başlayır. Bu, Xəzər regionunun neft-qaz və enerji sektorunda ən nüfuzlu tədbir hesab olunur və təsadüfi deyil ki, üç hissədən ibarətdir. Bunlar 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri və Bakı Enerji Forumudur.

Neft-qaz sərgisi bu tədbirin, belə demək mümkünsə, bazası sayılır. Azərbaycan uzun illərdir bu sərgiyə evsahibliyi edir. Yalnız koronavirus pandemiyası ilə bağlı 2020-ci və 2021-ci illərdə tədbirin keçirilməsində fasilə yaranmışdır. Birinci sərgi isə 1994-cü ildə keçirilmişdir. Onun təşəbbüskarı və təşkilatçısı Ümummilli Lider Heydər Əliyev olmuşdur. "Əsrin müqaviləsi"ndən bir neçə ay əvvəl baş tutan tədbir ölkəmizin ümumi inkişafında mühüm rol oynamışdır. Debüt sərgini haqlı olaraq "Əsrin müqaviləsi"nin müjdəçisi adlandırırlar. Prezident İlham Əliyev həmin dövrü xatırlayaraq demişdir: "O vaxt Azərbaycanı demək olar ki, dünyada tanımırdılar. Azərbaycan gənc müstəqil dövlət idi. Xüsusilə nəzərə alsaq ki, müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, Azərbaycanda iqtisadi, siyasi və hərbi böhran hökm sürürdü. Ermənistan torpaqlarımızı işğal etmişdir, 1993-cü ildə vətəndaş müharibəsi başlamışdır. Yəni bütün bu amilləri nəzərə alsaq, bir daha görürük ki, sərginin nə qədər böyük əhəmiyyəti olmuşdur. Çünki o vaxt bu sərgi vasitəsilə Azərbaycan öz neft potensialını dünyaya təqdim etdi. Azərbaycan bəyan etdi ki, o, investisiyalara açıq bir ölkədir. Azərbaycan inkişaf yolu ilə getmək, müasir dövlətə çevrilmək istəyir. Buna nail olmaq üçün əlbəttə ki, ilk növbədə ölkəmizə xarici sərmayə qoyulmalı idi. Xarici sərmayə üçün ən cəlbedici sahə təbii ki, neft sahəsi idi".

Ötən illər ərzində Beynəlxalq Xəzər Neft-Qaz sərgisi dünyanın neft, qaz və energetika sahəsində çalışan aparıcı mütəxəssislərin görüş yerinə çevrilib, burada gələcək əməkdaşlığa dair memorandumlar, müqavilələr imzalanıb. Qeyd edildiyi kimi, sərgi yarandığı ilk vaxtlardan respublika rəhbərliyinin diqqət mərkəzində olub. Hər il Prezident İlham Əliyevin sərginin açılış mərasimində iştirakı tədbirin yüksək statusunu bir daha təsdiqləyir. Eləcə də bir sıra dövlətlərin rəhbərləri hər dəfə sərginin açılışı münasibətilə Prezidentimizə təbrik məktubları göndərirlər. Həmişə olduğu kimi, yenə də Bakı Enerji Həftəsinə yüksəkrütbəli qonaqlar gəlib.

Bu il sərgilərdə və forumda 30 ölkədən 249 şirkət iştirak edəcək. İştirakçılar sırasında ABŞ, Almaniya, Azərbaycan, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, Niderland, İsrail, İspaniya, İsveçrə, İndoneziya, İtaliya, Qazaxıstan, Macarıstan, Norveç, Rumıniya, Rusiya, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə, Xorvatiya, Yaponiya, Yunanıstan, Özbəkistan şirkətləri özünə yer alıb.

Tədbirə ənənəvi olaraq Energetika Nazirliyi və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) dəstək göstərirlər. Sponsorların tərkibində "ACWA Power", bp, "Equinor", "Masdar", INPEX, "Turkiye Petrolleri", "Baker Hughes", "Microsoft", "PASHA Bank", "TechnipFMC", "Tenaris", "TotalEnergies", "Uniper", "Azeri MI Drilling", AZFEN, "Baku Steel Company", "Caspian Drilling", "Caspian Marine Services Limited", "Ernst & Young", "Global Energy Azerbaijan Management", TEKFEN kimi sanballı şirkətlərin olması da onun əhəmiyyətinə diqqət çəkir. Sərgi Bakı Ekspo Mərkəzində baş tutacaq.

Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji Sərgisi "Caspian Power" isə bu il 10 illik yubileyini qeyd edir. O, ənənəvi olaraq Beynəlxalq Xəzər Neft və Qaz sərgisi ilə yanaşı, eyni vaxtda və eyni məkanda keçirilir. Bu il sərginin ekspozisiyası beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsində ən son təkliflərini təqdim edəcək. Bu, eyni zamanda Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" ilə təmin olunması üçün bərpaolunan enerji mənbələri üzrə investisiyalar və birgə layihələr sahəsində əməkdaşlıq imkanlarını genişləndirəcək.



Bakı Enerji Forumu iyunun 2-3-də Bakı Konqres Mərkəzində keçiriləcək. Tədbirdə qlobal enerji perspektivləri, Xəzər regionunda kəşfiyyat və hasilat imkanlarının xəritəsi, yaşıl enerjiyə keçidin maliyyələşdirilməsi və bir sıra digər aktual mövzular ətrafında müzakirələr aparılacaq. Builki forumda dünyanın 20 ölkəsindən 400-dən çox nümayəndə iştirak edəcək. Forumun proqramına yerli və xarici şirkətlərin nümayəndələrinin ünsiyyət qurmasına və mümkün əməkdaşlığın bütün aspektlərini ətraflı müzakirə etməyə imkan verəcək ikitərəfli işgüzar görüşləri daxildir. Tədbirdə Azərbaycan, Bolqarıstan, Rumıniya energetika nazirlərinin, Moldova və Serbiyanın baş nazir müavinlərinin, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibinin, ABŞ-ın enerji ehtiyatları bürosunun və Avropa komissiyasının nümayəndələrinin, SOCAR, bp, TPAO, "Equinor", "Uniper", "Tenaris", "TotalEnergies", "Masdar", "ACWA Power" və digər şirkətlərin rəhbərlərinin məruzə ilə çıxış etmələri gözlənilir.

Daha bir möhtəşəm yenilik isə ondan ibarətdir ki, foruma işğaldan azad edilmiş ərazilərimizdə yekun vurulacaq. İyunun 4-də Şuşa şəhərində Bakı Enerji Forumunun iştirakçıları ilə sessiya keçiriləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Ana nisgilli körpələrin sevinci














*Onların gözləri hər zaman yolda, qulaqları səsdədir...*

*Ən çox qucaqlaşmağı sevirlər...*

*Fəqət, onları dünyaya gətirən ata-ana nəvazişindən, isti qucaqdan məhrumdurlar...*

*O körpələr hər toxunan sığalda, hər yanağın öpüşündə o duyğunu hiss edib xoşbəxtliyə qərq olmaq üçün yəqin ki, hər bir arzularından keçərlər. Axı onlar bircə sevinci analarının ağzından çıxan xoş sözdə axtaran günahsız uşaqlar, gözləri yollarda qalan kimsəsizlərdir. Axı valideyn qayğısı nə bir pulla alına bilər, nə də bəxş edilən təmtəraqlı həyatla əvəzlənər...*

*1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar olaraq baş çəkdiyimiz 1 Saylı Uşaqlar Evinin balaca sakinləri ilə xoş və maraqlı bir gün keçirdik, onların qayğılı günlərinə şahidlik etdik.*

### 80 uşağı olan böyük bir ailə

Binaya daxil olan andan içəriyə doğru uzanan dəhlizin hər tərəfi rəsm əsərləri ilə bəzədilib. Şəkillər o qədər professionallıqla çəkilib ki, sanki dünyaşöhrətli rəssamların fırçalarından çıxıb. Şəkillərə baxıb mənalarında gəzinərkən müəssisənin direktoru Nərminə Zöhrabova bizə yaxınlaşır, diqqətimizin səmtini görüb deyir ki, bu əsərləri onun gözəl balaları çəkib. Müəssisədəki hər övladına belə yanaşan Nərminə xanımla söhbət əsnasında uşaq evinin ümumi fəaliyyəti ilə bağlı məqamları öyrənirik.

1 Saylı Uşaqlar Evi 1950-ci illərdən fəaliyyətdədir. 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib. Hazırda 80 valideyn himayəsindən məhrum edilmiş uşaq burada daimi olaraq yaşayır. Uşaqlar ikinövbəli olaraq tərbiyəçilər və köməkçilər vasitəsilə istiqamətləndirilmək üçün 4 qrupa bölünüblər.

1-ci qrupdakı uşaqlar 3-6 yaş aralığındadır. Bu uşaqların gün ərzindəki qayğıları, istəkləri, tələbatları ilə maraqlanan qrupun tərbiyəçisi Elnarə Zeynalova söyləyir ki, bu yaş qrupuna daxil olan uşaqların bəziləri ibtidai siniflərdə də təhsil alır: "Əsasən qrup məktəbəqədər uşaqlardan ibarət olsa da, aralarında 1-2-ci siniflərə gedənlər də var. Hamımız səhər 7-in yarısı yuxudan oyanırıq, yeməyimizi yeyib gündəlik fəaliyyətimizə başlayırıq. Məktəbə gedənlər öz sıralarına qoşulur, digər balacalarla birlikdə isə oyun otağına gəlir, günü səmərəli keçirməyə çalışırıq".

### Doğma valideynlərini sıradan insan kimi qarşılayırlar

Kənardan durub onların əylənmələrinə tamaşa edirik. Reallıqların xaricində öz nəşəli dünyalarında yaşayan balacaların gülüşləri üzlərini bəzəyirdi. Buradakı uşaqların böyük bir qisminin valideynləri onları həftəsonu ziyarətə gəlirlər. Elnarə Zeynalova qeyd edir ki, balacalar valideyn anlayışını tam formada dərk edə bilmirlər. Onlar həftəsonunu yalnız gətirilən sovqatlara görə səbirsizliklə gözləyirlər. Ana, ataları və ya digər yaxın qohumları gəldikdə isə onları xüsusi istiqanlılıqla yox, sıradan bir insan kimi qarşılayırlar. Yaşlarının az olması, üstəlik valideyn nəvazişi görməmələri onlarda belə hisslərin boşluğunu yaradır.

Müəssisənin tərbiyəçilərinin öyrətdiyi davranış qaydalarından əlavə burada kütlə qanunauyğunluqları da hər bir uşağa aşılanır. Belə ki, Elnarə xanım söyləyir ki, adətən 1-ci qruplara qoşulan yeni uşaqları xüsusi istiqamətləndirməyə ehtiyac belə qalmır.

### Müəssisədə onların çoxlu bacı-qardaşı var...

Uşaqlar mehribanlıqla oynayır, plastilindən və ya digər müxtəlif vasitələrdən düzəltdikləri kiçik fiqurları bir-birilərinə göstərərək sanki rəqabətə girirdilər. Məlumdur ki, məhz elə inkişafın təməlində də erkən yaşlardan rəqabətin həlledici rolu dayanır.

Elə bu vaxt qrupun balaca məktəbliləri dərsdən qayıdır, tərbiyəçilər onları nahara səsləyirlər. Onlar tez-tələsik sıraya düzülərək nizamlı cərgəylə üzü yeməkxanaya doğru yol alırlar. Hər ailənin yemək masasında olduğu kimi, burada da hərənin öz yeri var. Onlar öz yerlərinə keçib sahmanla əyləşərək yeməyin gəlməyini gözləyirlər.

Bu zaman balacalara yeməklərin gətirilməsində işçilərdən əlavə iki yeniyetmə qız da kömək göstərirdi. Onlar uşaq evinin böyük qızlarındandırlar. Nərmin Zöhrabova deyir ki, daim uşaqlara buraya müəssisə kimi yox, öz evləri kimi yanaşmağı öyrədirlər. Böyük uşaqlar evdə necə valideynlərinə kömək göstərirlərsə, burada da onlar boş olduqları zaman bacı və qardaşlarının qeydlərinə qalırlar. Qızlar yeməkləri balacaların qarşısına qoyandan sonra çörəkləri kəsib sulu yeməklərin içərisinə atıb, özləri də süfrə arxasında əyləşdilər. Yanlarındakı uşaqlardan kimsə yeməkdə çətinlik çəkərdisə, onları yedizdirməyə yardımçı olurdular.

### Tək amal faydalı vətəndaş yetişdirməkdir

Balacalar naharlarını edərkən biz direktorla həmsöhbət olduq. Nərminə xanım deyir ki, illər öncə məktəbi bitirsə də, elə bil hər səhər uşaqlarla birlikdə yenidən məktəbə gedir. Uşaqlar dərslərin sayından asılı olaraq müxtəlif saatlarda çıxdığından eyni qaydada tərbiyəçilər onları məktəbdən götürərək müəssisəyə gətirirlər. Nahardan sonra dərs otağında günlük ev tapşırıqları edilir, daha sonra isə hərə öz məşğuliyyətinə yönəlir.

Nərminə Zöhrabovanın sözlərinə görə, onların əsas amalı buradakı uşaqları cəmiyyətə yararlı vətəndaş kimi yetişdirməkdir. Müəssisə insani keyfiyyətlərin aşılanmasından əlavə məqsədli gənclik formalaşdırmaq üçün də çalışır. Onlar müxtəlif məşğuliyyətlərə yönəldilir, bununla da müxtəlif sınaqdan keçib öz istədiklərini, daim fəaliyyətdə olacaqları sahələri tapa bilirlər.

Söhbətləşdiyimiz 11-ci sinif şagirdi Həyat gələn dərs ilində Bakı Xoreoqrafiya Akademiyasında təhsil almağa başlayacaq. Bacarıqlı rəqs qabiliyyəti, xüsusilə də burada keçirilən dərslərdə elə bir istedadının üzə çıxarılması nəticəsində bu sahəni seçib. Builki məzunlardan biri də C.Naxçıvanski adına Hərbi Liseyə hazırlaşır. Düzdür, liseyə qəbul olunmaq çətin olsa da, məktəbin bütün müəllim kollektivi onun qəbul olacağı xəbərini səbirsizliklə gözləyir.

Ali təhsil müəssisələrinə uşaqlar evinin şagirdlərinin hazırlaşdırılmasında isə oxuduqları məktəbin müəllim kollektivinin böyük rolu var. Onlar dərsdən sonra əlavə məşğələlərə yönləndirilirlər. Təsadüfi deyil ki, hazırda 1 Saylı Uşaqlar Evinin məzunlarından xarici ölkələrdə təhsil alanlara da rast gəlinir. Ölkəmizdə isə Bakı Dövlət Universiteti, Xarici Dillər Universiteti, Azərbaycan Diplomatik Akademiyası və s. kimi təhsil ocaqlarının məzunları arasında uşaqlar evinin yetirmələri də var.

### Hərənin bir istedadı var, yalnız onu kəşf etmək qalır...

Əslində, uşaqlara kiçik yaşlarından bir çox bilgilər sadə müstəvidə aşılanmalıdır. Onlar asanlıqla bir çox şeyləri hazır əldə etdiklərindən möhkəm iradə sahibi ola bilmirlər. Belə məsələlərə uşaqlar evində də diqqət edilir. Buradakılar sosial həyata qarşı nisbətən qapalı böyüdüyündən onların zirək görüşlü olmalarının yükü isə müəssisə işçilərinin üzərinə düşür.

Direktor bildirir ki, bazara, mağazaya gedəndə özü ilə hər dəfə bir neçə uşağı da aparır: "Onlara aldığımız, yediyimiz nemətlərin haradan əldə edildiyini, qiymətlərinin nə qədər olduğunu göstərmək, həmçinin insan kütləsinin daha çox olduğu yerlərin ab-havası ilə tanış etmək üçün bunu həyata keçiririk. Bu zaman uşaqlar sosial həyatla tanış olur, 18 yaşına çatanda isə üzləşəcəkləri situasiyalarda qərar vermək potensialına sahib olurlar".

Balacaları nahar fasilələri ilə başbaşa qoyub digər qrupların yanına gedirik. Bu dəfə daxil olduğumuz otaqda hər kəsi "dəyirmi masa" ətrafında əyləşib əllərində karandaş və qələm gördük. Kimisi çəkdiyi rəsmi boyayır, kimisi isə xəyalındakıları vərəqə köçürməyə çalışırdı. Bura 2-ci qrupun dərs və məşğuliyyət otağı idi. Keçib sakitcə yanlarında əyləşib bir qələm və bir kağız da mən götürdüm. Onların ətrafında çoxdankı qabiliyyətim sanki yenidən baş qaldırmışdı. Cızma-qara elədiyim kağıza sağ-solumda oturan uşaqlar diqqətlə baxır, nəyisə izah etmək istəyirdilər. Onlarla söhbətə başlayandan sonra mənə çəkdiyim şəkildə kömək göstərməyə başladılar.

Qrupun bacarıqlıları çox idi. Yaşlarının az olmasına baxmayaraq istedadları gözlərində qığılcımtək parlayırdı. Onlar həvəslə çəkdiklərini bir-birilərinə göstərməyə çalışırdılar. Elə bu zaman uşaqlardan birinin - Turacın sakit davranışları hay-küylü otaqda diqqətimizi çəkdi. O, əlində vərəqini tutub özündən əmin halda bizə tərəf irəliləyirdi. Yaxınlaşanda dedi ki, bu da onun çəkdiyidir. Vərəqi çevirəndə Üzeyir bəy Hacıbəylinin portreti göründü. 10 yaşının olduğunu deyən Turac dahi şəxsiyyətimizi o qədər aydın cizgilərlə təsvir etmişdi ki, geriyə sadəcə ona heyranlıq dolu gözlərlə baxmaq qalırdı...

Öyrəndik ki, Turacın Uğur adlı bir qardaşı da var. Hər ikisi də uşaq evinin sakinləridirlər. Turac deyir ki, həftəsonları valideynləri onları ziyarətə gəlirlər. Hal-əhval tutduqdan, gündəlik gördükləri işlərlə maraqlandıqdan sonra gedirlər. Ən böyük arzusu rəssam olmağını söyləyən Turacla və qrupun digər yaradıcı ruhlu uşaqları ilə sağollaşıb müəssisəni gəzməyə davam edirik.

Uşaq evi çox həssas məkanlardan biridir. Bura daxil olan andan diqqətli davranılmalı, onlara duyulan sevgi maksimum hiss etdirilməlidir. Elə bu əsnada söhbətləşdiyimiz müəssisənin psixoloqu Nərgiz Dadaşova qeyd edir ki, yaş qruplarına görə adaptasiya və yaşam prosesləri fərqlənir. Belə ki, nisbətən kiçik uşaqlarla keçirilən konsultasiyaların uğurlu nəticəsi özünü daha tez büruzə verir. Yaş artımı və yeniyetməlik mərhələsinə keçid edən uşaqlarda isə aqressiv halların çoxalması işləri nisbətən qəlizləşdirir. Bu zaman tətbiq edilən metod daimi məşğuliyyətdir. Yəni buradakı heç bir uşağa boş zaman sərfiyyatına şərait yaradılmır. Toxuculuq, tikmə, sənətkarlıq, musiqi, rəqs və s. kimi incəsənət sahələrinə məktəbdən sonra istiqamətləndirilən uşaqlar əlavə işlərə vaxt xərcləməyə imkan tapmırlar. Bununla da, həm daha faydalı, həm də stres və gərginlikdən kənar günlər keçirirlər.

Bütün bunlarla yanaşı, uşaqlara fərdi konsultasiyalar da keçirilir. Bu zaman onların ruh hallarına daha yaxından bələd olunur, problemlərinə qarşı həll metodları individual formada tətbiq edilir.

### Min muzeyi bəzəyə bilən uşaqlar

Psixoloqla söhbət edə-edə uşaqların əl işlərinin toplanıldığı otağa çatırıq. Bura muzeyə bənzəyir. Eksponatları isə uşaqlar evinin sakinlərinin yaradıcılıqları təşkil edir. Burada o qədər çox əl işləri, rəsm nümunələri var ki, içəri girəndə adam lap çaşbaş qalır. Nərgiz Dadaşova bizi əsərlərlə tanış edir və deyir ki, hər bir uşağın istedadı ola bilər, ancaq çətini onu üzə çıxarmaqdır:

Digər otaqda isə əllə hazırlanan kuklalar, bəzədilən döşəkçələr, toxunan xalçalar, kağızdan düzəldilən fiqurların incəsənəti olan oriqami sənətinə aid nümunələr gözə çarpırdı. Sanki bu işlərin sahibləri olan uşaqlara bir balaca stimul vermək kifayət edər ki, onlar öz yaradıcılıqları ilə yoxdan var yaratsınlar.

### Uşaq evlərində böyüyüb məsləyini elə burada davam etdirənlər var

Nümunələrin toplandığı otaqlardan çıxdıqda yuxarı mərtəbələrdə musiqi sədaları eşidilir. Bəlli olur ki, uşaqlar bayram tədbirlərinə hazırlaşırlar. Onları hazırlaşdıran müəllim isə elə bu uşaq evində böyüyən Azər Azərsoydur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirdikdən sonra burada işləməyə başlayan Azər deyir ki, bura ona ən əziz məkanlardan biridir: "Uşaq evində böyüyüb yenidən buraya xidmət etmək üçün qayıtmaq başqa bir aləmdir. Düşünürəm ki, bunu ancaq həmin yerdə həqiqi bağları, doğmalığı, xoş xatirələri olan biri anlaya bilər. Hazırda sahib olduğum bir çox şeyə görə isə məhz bu uşaq evinə borcluyam. Buradan öyrəndiyim aktyorluğu, rəqsi də məhz buradakı uşaqlara öyrətmək üçün fəaliyyətimi həyata keçirirəm". Azər Azərsoy uşaqlar evində rəqs, aktyorluq sənətini, dram dərslərini, tədbir və tamaşaların hazırlanmasını birbaşa özü həyata keçirir. Onun təşkilatçılığı ilə keçirilən hər bir tədbir öz məxsusiliyi ilə fərqlənir.

Qrup tərbiyəçisi köməkçilərindən olan Aygün xanım da bu uşaq evində böyüyüb, daha sonra burada qalaraq iş fəaliyyətini davam etdirib. 3 yaşından 22 yaşına qədər bu evdə yaşayıb. Daha sonra ailə həyatı qurub buradan köçüb. Artıq 8 ildir ki, təlim-tərbiyə işləri üzrə çalışır.

Onu da deyək ki, müəssisənin 1-ci, eləcə də digər mərtəbələrində divarları bəzəyən rəsmlərin bir çoxu Ayla imzası ilə möhürlənmişdi. Mərtəbələri bir çox müsabiqələrin qalibi olan Aylanın sertifikatlarını da görə-görə qalxmışdıq. 4-cü qrupun məşhur simalarından olan Ayla ilə elə burada tanış oluruq. 19 yaşlı Ayla 13 ildir ki, buradadır və bir çox bacarıqlara yiyələnib. Azərbaycan Dövlət Pedaqoji Kollecində Rəssamlıq ixtisası üzrə təhsil alması isə onun əldə etdiyi növbəti uğurlarındandır. Kolleci bitirdikdən sonrakı hədəfi universitet təhsili almaq və öz ixtisasına dair biznesini qurmaqdır.

Qruplarla, oradakı mehriban, istiqanlı uşaqlarla tanış olub, keçirdikləri günün müəyyən bir qismini onlarla başa vurduqdan sonra mərtəbələri aşağı enirik.

Aşağıda bəzi uşaqlar divanda əyləşib cizgi filminə tamaşa edirdilər. Bu zaman uzaqdan eşidilən səs onların bəzilərini məyus edir. Tərbiyəçi Mehriban Ağasəliyeva 1-ci qrupun balacalarına günorta yatmaq vaxtının gəldiyini xatırlatması uşaqların keyfini pozur. Əyləncələrini yarıda qoyub yatacaqları otaqlara üz tuturlar.

*Onlar getdilər, paltarlarını dəyişdilər, çarpayılarına uzandılar...*

*Tərbiyəçi də öz yerini alıb avazla danışmağa başladı: Biri var idi, biri yox idi...*

*Arzularda isə bircə dilək vardı, kaş ki, bu nağılı anam oxuyaydı...*

***Aydan XƏLİLOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün yanğın mühafizə sistemlərinin alınıb-quraşdırılması məqsədilə açıq tender elan edir

Açıq tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar açıq tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, Sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 5 (beş) ay ərzində İcraçı tərəfindən Sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır. Çatdırılma ünvanı: Təhsil Nazirliyinin bir sıra təhsil müəssisələri.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 07.07.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 19.07.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.07.2022-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bir uşaq bir ailənin ümidi, bir millətin gələcəyidir



Uşaq bir dünya sevinc, xoşbəxtlik, evlərdə nur, ürəklərdə fərəh deməkdir. Bir ailənin ümidi, bir millətin gələcəyidir... Bu gün Beynəlxalq Uşaq Günüdür. Günəş gözlü körpələrin, saf ürəkli, gül qoxulu mələklərin günüdür.

Dünyanın hər yerində 1 İyun 1950-ci ildən BMT Assambleyasının qəbul etdiyi qərara əsasən, Beynəlxalq Uşaq Günü kimi qeyd edilir. Nə yazıq ki, bir zamanlar dünyaya körpə kimi gəlib, sonradan insanlığa, bəşəriyyətə meydan oxuyan məkrli siyasətçilərin ambisiyaları ucbatından dünyanın hər yerində uşaqlar gülə bilmirlər, qan gölündə boğulurlar. Həm də yalnız üzlərindəki təbəssümü, gözlərindəki sevinci, arzularını yox, sağlamlıqlarını, ümidlərini, ömürlərini itirirlər. Bu gün Suriyada, İraqda, digər münaqişə bölgələrində körpələrin sabahları qaranlığa açılır. Onların sevincləri alınır, həyatları məhv edilir... Hələ anlamadıqları, dərk etmədikləri dünyalarına son qoyulur. Sevgi, sevinc əvəzinə sinələrində dərd böyüdürlər....

Biz bu yolu keçdiyimizə, bu ağrıları həyatımızda yaşadığımıza görə həmin dərdlərə daha çox yanırıq. Bu acını Ermənistandan, dədə-baba yurdlarımızdan didərgin salınanda yaşamışıq... Xocalının qarlı qışında, Şuşadan didərgin salınanda, Kəlbəcərin keçilməz qarlı aşırımlarından keçib gələndə bu faciənin şahidi olmuşuq. Xain qonşularımızın məkrli niyyətlərini ana bətnindəykən hiss edən körpələrimiz başımıza gələn müsibətləri duyub, yumruqları düyünlənmiş formada doğulurdular. Ürəklərində qisas, qəzəb böyüdürdü körpələrimiz. Bu həmin körpə yumruqları idi ki, böyüyüb bir olub, 44 günlük Vətən müharibəsində "Dəmir yumruğ"a çevrilib xalqımıza qələbə qazandırdı. Tanrıya şükürlər olsun ki, indi yurdun başı üzərində sülh göyərçinləri uçur. Şuşada yenidən arzular, ümidlər doğulur. Körpələrəmizin xoşbəxt gələcəyi naminə indi həmin torpaqlarda uşaq bağçaları, məktəblər, ailə, uşaq sağlamlıq mərkəzləri tikilir. İndi dağlarımızda silah səsi yox, musiqi sədası eşidilir.

Nə xoş ki, siyasətimiz sülh, əməlimiz salehdir. Bu, babalardan miras qalıb bizə. Ulu Öndərdən yadigardır bu sevgi bizlərə. Ölkəmizdə dinindən, milliyyətindən asılı olmayaraq heç bir vətəndaşa fərq qoyulmadığı, arzularının həyata keçməsi, fikirlərini sərbəst ifadə edib, müstəqil fəaliyyət göstərmələri üçün hər cür dövlət dəstəyi göstərildiyi kimi, uşaqlara da böyük qayğı göstərilir. Onların azad, problemsiz, xoşbəxt böyümələri üçün hər cür şərait yaradılır və gündən-günə bu diqqət daha da artır. Gələcəyimizin sağlam, təminatlı, qayğısız və əsl vətəndaş kimi böyüməsi üçün yeni əyləncə mərkəzləri, körpələr evləri, uşaq bağçaları, tibb müəssisələri tikilib istifadəyə verilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla xanım Əliyevanın hər il Beynəlxaq Uşaq Günü valideyn himayəsindən məhrum olmuş, fiziki qüsurlu uşaqlara baş çəkib onları öz hədiyyələri ilə sevindirməsi, qayğıları ilə məsud etmələri ənənə şəklini alıb. Xalqımızın sevimlisi Mehriban xanımın hər bir xəstə, imkansız uşağa fərdi yanaşaraq dövlətin və fondun hesabına onların müalicələrini təşkil edib sağlam həyata qayıtmalarına illərdir ki, şahidlik edirik.

Yürüdülən sülh siyasətinin şəfqətindən yalnız ölkəmizin balaca vətəndaşları deyil, dünya adlı böyük evimizin sakinləri də pay ala bilirlər. Suriyadan, İraqdan, Ukraynadan gətirilmiş, hər iki valideynini itirmiş, qayğıya möhtac olan uşaqlar dövlətin nəzarəti altında reabilitasiya keçərək, sevgi və isti ocaqla təmin edilir, normal yaşamaları üçün lazımi şərait yaradılır.

Uşaqların xoşbəxt, qayğısız yaşadığı dövlət ən qüdrətli dövlətdir. Çalışaq ki, göylərdə ölüm saçan silahlar deyil, sülh göyərçinləri uçsun. Ölüm saçan silahların səsini yox, körpə gülüşünün şaqraq sədası eşidilsin. Təkcə ilin bir günü yox, bütün günlərimizi gələcəyimizə, uşaqlara həsr edək. Dünyamızı qoruyaq, uşaqları sevək.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Bağışlamaq qəlbin böyüklüyüdür

# *Ombudsman:* "İnsan hüquq və azadlığına həssas münasibət, humanizm siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir"

"Müstəqillik Günü ərəfəsində Ali Baş Komandan İlham Əliyev sayca 68-ci əfv sərəncamını imzalayıb. Ulu Öndər Heydər Əliyev tərəfindən insan hüquq və azadlığına göstərilən həssas münasibət və humanizm siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir".



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində əfv sərəncamının icrasında iştirak edən Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva söyləyib.

O, qeyd edib ki, "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam ümumilikdə 213 şəxsə şamil olunub. Sərəncama əsasən, bir nəfər ömürlük cəzadan azad edilib. Əfv siyahısı məhkumların özlərinin, ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin və insan hüquqları təşkilatlarının müraciətlərinə əsaslanaraq onların ailə vəziyyətləri, səhhətləri, islah olmaları və digər məsələlər də nəzərə alınaraq tərtib olunub: "Mənim insan hüquqları üzrə müvəkkil olaraq Prezident İlham Əliyevə müraciətim əsasında 31 nəfər bu siyahıda yer alıb. Bu sərəncama, humanist siyasətinə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür edirəm. Hesab edirəm ki, əfv olunan şəxslər gələcəkdə Vətəninə, xalqına, dövlətimizin başçısına sadiq olacaqlar".

# Məhkumlar cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar











Dövlət başçısı İlham Əliyevin ötən gün imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 17 saylı cəzaçəkmə müəssisəsində də icra olunub.

AZƏRTAC xəbər verir ki, həmin cəzaçəkmə müəssisəsində 7 nəfər azadlığa buraxılıb.

Əfv olunan şəxslərə sənədlərini Penitensiar Xidmətin rəis müavini Oqtay Məmmədov, ombudsman Səbinə Əliyeva və Milli Məclisin deputatı Zahid Oruc təqdim edib.

Azadlığa buraxılanlardan 4-ü "Gəncə hadisələri"nə görə həbs edilmişdir.

* * *

Dövlət başçısı İlham Əliyevin mayın 27-də imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamın icrası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 2 saylı cəzaçəkmə müəssisəsində 27 nəfərə şamil olunub.

AZƏRTAC xəbər verir ki, bu cəzaçəkmə müəssisəsində 22 nəfər azadlığa buraxılıb, 5 nəfərin cəzası yarıya endirilib.

Əfv olunan şəxslərə sənədlərini Penitensiar Xidmətin rəis müavini Oqtay Məmmədov, ombudsman Səbinə Əliyeva və Milli Məclisin deputatı Zahid Oruc verib.

Azadlığa buraxılanlardan 5-i "Gəncə hadisələri"nə görə həbs edilənlərdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin mayın 27-də imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamın icrası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 10 saylı cəzaçəkmə müəssisəsində davam etdirilib.

AZƏRTAC xəbər verir ki, 10 saylı cəzaçəkmə müəssisəsində 11 nəfərə arayış təqdim edilib. Onlardan 7 nəfər azadlığa buraxılıb, 4 nəfərin cəzası yarıya endirilib.

Əfv olunan şəxslərə sənədlərini Penitensiar Xidmətin rəis müavini Oqtay Məmmədov, ombudsman Səbinə Əliyeva və Milli Məclisin deputatı Zahid Oruc təqdim edib.

Azadlığa buraxılanlardan 3 nəfəri "Gəncə hadisələri"nə görə həbs edilən şəxslərdir.

## Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 15 saylı cəzaçəkmə müəssisəsində 4 nəfərin cəzası yarıya endirilib

Azərbaycan Prezidenti İlham Əliyevin ötən gün imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 15 saylı cəzaçəkmə müəssisəsində də icra olunub.

AZƏRTAC xəbər verir ki, həmin cəzaçəkmə müəssisəsində 4 nəfərin cəzası yarıya endirilib.

# Samur-Yalama Milli Parkında "Təbiətin keşiyində" ekoskaut düşərgəsi keçirilib

Mayın 28-dən 30-dək IDEA İctimai Birliyi və Azərbaycan Skaut Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Samur-Yalama Milli Parkında "Təbiətin keşiyində" növbəti ekoskaut düşərgəsi təşkil edilib.





IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən xəbərə görə, düşərgəyə 18-25 yaşarası ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan, təhsilini tamamlamış və ya bu sahədə təcrübəsi olan, həmçinin ekoloji fəallığı ilə seçilən 100 gənc qoşulub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə gənclər üçün Samur-Yalama Milli Parkının ərazisində ekotur təşkil edilib, onlara milli parkın yaradılmasında əsas məqsəd, burada rast gəlinən nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılması haqqında geniş məlumat verilib. Vəhşi Təbiət Fondunun (WWF) mütəxəssisi tərəfindən Samur-Yalama Milli Parkında rast gəlinən flora və fauna növləri haqqında mühazirə keçirilib.

Gənclər üçün üçgünlük düşərgə müddətində Azərbaycanın biomüxtəlifliyi və milli parkları, eləcə də Dayanıqlı İnkişaf Məqsədləri (DİM) mövzusunda təlim, o cümlədən dağçılıq kimi idman sahələrində müasir avadanlıqlardan istifadə, qeyri-adi vəziyyətlərdən çıxış üsullarını və yaralıya ilk tibbi yardım qaydalarını praktiki təlimlərlə öyrənməklə yanaşı, əsrarəngiz mənzərəsi olan yerlərə yürüşlər, oxatma, idman oyunları, ziplayndan uçuş, ekstremal gecələmə, müxtəlif ekoloji yarışlar və müsabiqələr keçirilib. Həmçinin gənclər qlobal ətraf mühit problemləri üzrə fikir mübadilələrində və musiqili əyləncələrdə iştirak ediblər.

Düşərgənin sonunda iştirakçılara xatirə sertifikatları təqdim edilib. Qeyd edək ki, IDEA İctimai Birliyinin "Ekoskaut" layihəsinə 2017-ci ilin mart ayında start verilib. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir. "Ekoskaut" layihəsi çərçivəsində ilk düşərgə isə 2018-ci ilin may ayında Şirvan Milli Parkında, daha sonra Ağgöl, Göygöl, Şahdağ və Hirkan milli parklarında keçirilib.

"Təbiətin keşiyində" düşərgələrinin məqsədi gəncləri Azərbaycanın zəngin təbiəti, endemik flora və faunası barədə məlumatlandırmaq, təbiəti qorumaq, onlara təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadə etməyi, həmçinin gənclərə vəhşi təbiətdə düzgün davranışı, ətraf mühitə ziyan vermədən istirahəti təşviq etməkdir.

Ekoloji maarifləndirmə, insan fəaliyyəti nəticəsində təbiətə vurulan ziyanın azaldılması və tədricən aradan qaldırılması, eləcə də təbiətə münasibətdə etik davranışın formalaşdırılmasının əhəmiyyətini nəzərə alaraq, "Təbiətin keşiyində" ekoskaut düşərgələrinin ölkəmizin digər milli parklarında da keçirilməsi planlaşdırılır.

# "Azercell"in baş sponsorluğu ilə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı başa çatıb

## Lider operatorun "Rəqəmsal Yaşam Studiyası"nda təqdim olunan innovativ xidmət və həllər ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb









Azərbaycanda ilk dəfə olaraq Türkiyə Teknoloji Takımı Vakfının (T3 Vakfı), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı və "Azercell Telekom" MMC-in baş sponsorluğu ilə keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalı başa çatıb.

Bütün türk dünyasının böyük coşqu ilə izlədiyi möhtəşəm tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, Kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncər, "TEKNOFEST"in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri Selçuk Bayraktar, Türkiyənin Sənaye və Texnologiya naziri Mustafa Varank da iştirak ediblər.

"TEKNOFEST Azərbaycan"nın baş sponsoru olan "Azercell" şirkəti festivalda xüsusi "Rəqəmsal Yaşam Studiyası" konsepsiyasını təqdim edib. Festivalın ilk günündə "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalovanın müşayiəti ilə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və digər rəsmi qonaqlar şirkətin stendini ziyarət ediblər, burada təqdim olunan innovativ məhsullar və texnoloji həllərlə tanış olublar.

Festivalın keçirildiyi dörd gün ərzində "Azercell"in "Rəqəmsal Yaşam Studiyası"nda 1200-dən çox ziyarətçi şirkətin xidmətlərindən ibarət rəqəmsal səyahətdə olub. "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədini əsas tutan "Azercell"in təqdim etdiyi "ağıllı şəhər" konsepsiyası, elektron mütaliə, əyləncə, sənət və digər mövzularda innovativ həlləri ziyarətçilər maraqla qarşılayıb. Stenddəki "Azercell Life və Azercell Akademiyası" guşəsində şirkət təmsilçiləri gənclərin təhsil və inkişafına imkan yaradan fərqli proqramlar haqqında məlumat təqdim ediblər. "Azercell"in "Rəqəmsal Yaşam Studiyasında" artırılmış reallıq səyahətinə qoşulan hər bir ziyarətçiyə maraqlı hədiyyələr, uşaqlara kitab və suvenirlər təqdim olunub. Qeyd edək ki, 29 mayda "Azercell" stendinin qonağı olan şəhid övladlarını "Azercell Telekom" MMC-nin prezidenti Zərinə Zeynalova hədiyyələrlə qarşılayıb.

Bu ilin ən yaddaqalan tədbirinə çevrilən "TEKNOFEST Azərbaycan"ı dörd gün ərzində yüz minlərlə insan ziyarət edərək Azərbaycan və Türkiyənin dövlət və özəl qurumlarının innovativ layihələri ilə tanış olublar. Texnologiya sahəsinin parlaq simalarını kəşf etdirən bu festival çərçivəsində 8 texnoloji yarışma, 3 beynəlxalq tədbir keçirilib, qalib komandaların üzvləri prezidentlər və digər rəsmi qonaqlar tərəfindən təltif olunub.

Bu il 5 illiyini qeyd edən festivalın məqsədi aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

# SOCAR-ın Bakı Ali Neft Məktəbinin 2 komandası "TEKNOFEST"də birinci yeri tutub

SOCAR-ın Bakı Ali Neft Məktəbinin "İstiqlal" komandası Bakıda ilk dəfə keçirilən Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı - "TEKNOFEST" çərçivəsində baş tutan "Cansat Model Peyk" yarışının qalibi olub. BANM-in komandası bu müsabiqə üzrə final mərhələsində hazırladıqları peyk modelini səmaya uğurla buraxaraq birinci yeri tutub.




Komanda BANM-in Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan 5 tələbədən ibarətdir. Komandanın mentoru Bakı Ali Neft Məktəbinin məzunu və hazırda Ali Məktəbdə müəllim kimi fəaliyyət göstərən Ramil Şükürovdur.

Komanda üzvləri bunlardır:

1. Fidan Mahmudova
2. Səmra Hüseynova
3. Qeybulla Əliverdiyev
4. Kənan Bəgəliyev
5. Fuad Məmmədzadə (kapitan)

"TEKNOFEST"in digər qalib BANM komandası isə "Atəşgah"dır. "Yaşıl Texnologiyalar" üzrə "TEKNOFEST"ə qoşulan komandanın üzvləri Ali Məktəbin Kimya mühəndisliyi ixtisasında təhsil alan 3 tələbədir. Komandanın mentoru Bakı Ali Meft Məktəbinin məzunu Murad Rəhimovdur.

**Komanda üzvləri bunlardır:**

1. Faiq Əliyev
2. Fatimə Məmmədova
3. Fərid Əliyev (kapitan)

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.06.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən, lisenziya sahiblərinin lisenziyalarının qüvvəsinin dayandırılmasına əsas vermiş halları müəyyən edilmiş müddətdə aradan qaldırmadığını nəzərə alaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 25 may 2022-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 7 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən, lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin SİYAHISI**

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Abuşov Nurlan Rəhman oğlu | 24.01.2014 | 080522 | 5700500992 |
| 2 | Bəhlulov Müşfiq Təbriz oğlu | 28.06.2012 | 000701 | 1302908822 |
| 3 | Həsənov İbrahim Ramil oğlu | 24.06.2009 | 000200 | 8000011002 |
| 4 | Hüseynov Gündüz Binnət oğlu | 05.03.2012 | 000570 | 7600266262 |
| 5 | Məmmədvəliyev Anar Zülfiqar oğlu | 23.04.2014 | 080561 | 1901899542 |
| 6 | Quliyeva Sevinc Şləddin qızı | 11.04.2013 | 000916 | 2002586902 |
| 7 | Zeynalov Nəriman Yaşar oğlu | 05.10.2018 | SA-0083 | 1305549792 |







## "Azərneftkimyaquraşdırma" QSC-nin səhmdarlarının nəzərinə

"Azərneftkimyaquraşdırma" QSC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 20 iyul 2022-ci il saat 16:00-a təyin edilmişdir. Ümumi Yığıncağın keçiriləcəyi ünvan: AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, məhəllə 2090, küçə 560/510.

Gündəlikdə duran məsələlər:

1. "Azərneftkimyaquraşdırma" Qapalı Səhmdar Cəmiyyətinin səhmlərinin alınması.
2. Cəmiyyətin 2021-ci ilin yekunlarına dair maliyyə-təsərrüfat nəticələrinin təsdiqlənməsi.

Əlaqə telefonu: 050 256 77 11

*Rəhbərlik*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti "Bibiheybət" Gəmi Təmiri Zavodu üçün müxtəlif sinklənmiş polad boruların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2 AZ1003.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların satın alınması ilə bağlı 11 aprel 2022-ci il tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində və dövlət satınalmalarının vahid internet portalında elan edilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderlə əlaqədar Tender komissiyasının 21 may 2022-ci il tarixli qərarına əsasən, "Safaroff CA" MMC qalib elan edilmişdir.

Qalib cəmiyyətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**ŞAMXALI MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və cəmiyyətin kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Rauf, Sadiq və Camal Sadıqov qardaşlarına anaları

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqova anası

**HƏMİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri, professor Aqil Hüseynova bacısı

**MƏHLUQƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5967
Sifariş 1512
Qiyməti 40 qəpik